USAID
AMERİKA XALQINDAN

İqtisadi Təşəbbüslərə Yardım
Support For Economic Initiatives

EDF
SBIIYF

# Arıçılıq təsərrüfatı

## KİÇİK SAHİBKARLAR ÜÇÜN BƏLƏDÇİ








BAKI
2016
İQTİSADİ TƏŞƏBBÜSLƏRƏ YARDIM İB

İQTİSADİ TƏŞƏBBÜSLƏRƏ YARDIM
İCTİMAİ BİRLİYİ

# ARIÇILIQ TƏSƏRRÜFATI:

## KİÇİK SAHİBKARLAR ÜÇÜN BƏLƏDÇİ

Bakı - 2016

*Kitabça İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyinin ABŞ BİA-nın maliyyə dəstəyi ilə həyata keçirilən "Azərbaycanda kiçik sahibkarlığın inkişafına dəstək" layihəsi çərçivəsində hazırlanıb.*

**Hazırladı:**

**Rövşən AĞAYEV**
**Samir ƏLİYEV**

**Az1102, 2-ci Alatava küçəsi, 9**
**Tbilisi pr.,**
**Tel.: (99412) 4317713**
**E-mail: sei@azeronline.com**
**Web: www.sei.az**

**© İqtisadi Təşəbbüslərə Yardim İctimai Birliyi**

# Mündəricat

Giriş ........................................................................................................5
Arıçılıq təsərrüfatlarını kimlər yarada bilər? ...............................................7
Arıçılıq təsərrüfatlarının hüquqları və vəzifələri..........................................9
Arıçılıqda mülkiyyət hüququ....................................................................10
Həvəskar və peşəkar arıçılar kimlərdir? ....................................................11
Bal arısı cinsləri və populyasiyaları ölkəyə gətirilə bilərmi?......................13
Əhalinin təhlükəsizliyi üçün arıxanaların yerləşdirilməsi məsafəsi ........18
Arıçılıq sahəsində dövlət nəzarəti ..............................................................19
Damazlıq arıçılıq təsərrüfatlarının attestasiyadan keçirilməsi.................22
Baytarlıq-sanitariya pasportunun (şəhadətnaməsinin) alınması ............24
Arı məhsullarının keyfiyyətinə dair dövlət standartları ............................28
Arıçılıq məhsullarının standartlaşdırılması və sertifikatlaşdırılması ......32
Arı məhsullarının qablaşdırılması və etiketləşdirilməsi ............................47
İxrac edilən arı məhsullarının baytarlıq (baytarlıq-sanitariya) vəziyyətinin yoxlanılması, onların ölkə ərazisindən çıxarılması .............49
Arı məhsullarının satışı ..............................................................................52
Yeyinti məhsulları haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət ...............................................................................................54
Arı məhsulları: İstehlakçı üçün məlumat ..................................................58
Arıçılıq təsərrüfatlarının uçotu ..................................................................66
Arı ailəsinin standart gücünün müəyyən edilməsi ...................................69
Arı ailələrinin zərərvericiləri ilə mübarizə tədbirləri.................................70
Arı xəstəlikləri ............................................................................................73
Arı xəstəliklərinin müalicəsində istifadə edilən dərman vasitələrinin Siyahısı ....................................................................................................79
Arı ailələrinin balyığma və yeni məskunlaşma yerlərinə köçürülməsi....81
Arıçılıqla bağlı avadanlıqlar ......................................................................84
Anlayışlar ...................................................................................................95
Əlavələr ......................................................................................................
Ədəbiyyat ...................................................................................................

# Ön söz

Bu bələdçi Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) maliyyələşdirdiyi "Azərbaycanda Kiçik Sahibkarlığın İnkişafına Dəstək" layihəsi çərçivəsində hazırlanıb.

Layihənin məqsədi Azərbaycanda kiçik sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasıdır. Bu məqsədlə layihə çərçivəsində kiçik sahibkarlığın vəziyyəti və problemləri araşdırılır, qanunvericiliyin təkmilləşdirilməsinə, dövlət idarəetmə institutlarının gücləndirilməsinə dair təkliflər hazırlanır, konkret kiçik sahibkarlıq sahələrindəki maneə və çətinliklər təhlil edilir, qadın-ailə biznesinin inkişafına dair tədqiqatlar aparılır və tövsiyələr hazırlanır və bir sıra digər vacib istiqamətlərdə işlər görülür.

Layihənin icraçıları bunlardır: Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (aparıcı təşkilat), İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi, İqtisadi Tədqiqatlar Mərkəzi, Kiçik və Orta Müəssisələrin İnkişafına Yardım Mərkəzi, Gələcəyə Körpü Gəncə gənclər ictimai birliyi və Quba Xalça Dünyası Assosiasiyası.

Bu kitabça arıçılıq təsərrüfatları yaratmaq istəyən fiziki və hüquqi şəxslərin hansı prosedurları keçməli olduğu göstərir.

Kitabçada arıçılıq sferasında biznes qurmaq istəyən kiçik və orta sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı, vergi rejimi, ara düzgün qulluq və onların zərərvericilərdən qorunması üçün zəruri bilgilər, arı məhsulları istehsalı üçün vacib olan dövlət standartları, tələb olunan sertifikatların növləri və onların alınması formaları və s. əks olunub.

Bələdçi kiçik sahibkarlıqla məşğul olan subyektlər üçün nəzərdə tutulub.

# Giriş

Azərbaycanda tarixən arıçılıq ənənələri olub. Sovet dövründə arıçılıq təsərrüfatlarının inkişafı üçün müəyyən zəruri maddi-texniki baza və infrastruktur yaradılsa da, SSRİ dövlətinin süqutundan sonra belə təsərrüfatlar dağılmağa başladı. Ölkədə arıçılıq təsərrüfatları uzun müddət əsasən həvəskar arıçılar tərəfindən idarə olunub və ənənələr məhz onlar tərəfindən qorunub saxlanılıb. Bu gün arıçılıq təsərrüfatları kiçikölçülüdür.

Arıçılıq kənd təsərrüfatının ekoloji baxımdan ən təhlükəsiz növlərindən biridir. Azərbaycan dünyada ən məşhur arı cinslərindən biri olan Boz Qafqaz arısının vətənidir. Ölkədə daha çox "Boz Dağ Qafqaz", "Sarı İran" arı cinslərinin "Qabaqtəpə", "Qonaqkənd", "Azərbaycan", "Talış" və "Naxçıvan" arı populyasiyaları mövcuddur. Dünyada mövcud olan 24 arı cinsinin 2-si Azərbaycandadır.

Hazırda ölkənin arıçılıq təsərrüfatlarında olan arı ailələrinin sayı 250 mindən çoxdur, arıçıların sayı isə 8-10 min arasında dəyişir. Ölkədə hər bir arı təsərrüfatına orta hesabla 25-31 arı ailəsi düşür. Ekspertlərin hesablamalarına görə, arı təsərrrüfatının gəlirli işləməsi üçün hər bir belə təsərrüfat ən azı 200 arı ailəsinə xidmət göstərməlidir. Arı ailələri ölkənin regionları üzrə bərabər paylanmayıb. Mütəxəssislər ölkədə arı ailələrinin sayının 600-700 minə çatdırmaq potensialının olduğunu bildirir və Aran regionun arıçılıq üçün əlverişli olduğunu qeyd edirlər.

Ölkənin təbii bal istehlakına olan tələbatının 2400-2500 tonu daxili istehsal hesabına təmin edilir. Son 10 ildə təbii bal istehsalı 2 dəfədən çox artsa da hələki tələbatın bir hissəsi idxal hesabına təmin edilir. Əsas səbəb istehsal olunan balın maya dəyərinin baha olması və həcminin lazımi həddə olmamasıdır.

Azərbaycanda kiçik sahibkarlığın inkişaf etdirilməsinin potensial sahələrindən biri də arıçılıq sektorudur. Ölkədə fəaliyyət göstərən arıçılar əsasən həvəskardan ibarətdir. Onlar fəaliyyətləri zamanı müxtəlif problemlərlə qarşılaşırlar və bəzi hallarda həmin problemi həll etməkdə çətinlik çəkirlər. Məsələn, arı xəstəliklərinin müəyyən edilməməsi və ona qarşı tədbirlər görülməməsi, damazlıq işinin düzgün qurulmaması, arı ailələrinin

düzgün köçürülməməsi, arıçılıq avadanlıqlarının olmaması bir sıra hallarda məhsuldarlığı aşağı salmaqla yanaşı arı ailələrinin məhv olmasına da səbəb olur.

Azərbaycan təbiəti arı təsərrüfatlarının sayının dəfələrlə artırılmasına təminat verir. Mövcud arıçılıq təsərrüfatlarının böyüməsi və yeni yaradılan təsərrüfatların isə dirçəlməsi üçün onların öz hüquq və vəzifələrini bilməsi zəruridir. Şübhəsiz, kiçik biznes təmsilçilərinin də öz növbəsində qanunverciliyin onlara verdiyi hüquqlarla bağlı müfəssəl məlumatla malik olması vacib şərtlərdəndi. Bu buraxılış məhz həmin hüquqların öyrənilməsində arıçılıq xidməti göstərən kiçik sahibkarlara bələdçilik etmək məqsədilə hazırlanıb.

## Arıçılıq təsərrüfatlarını kimlər yarada bilər?

Arıçılıq fəaliyyəti arı yetişdirmə, damazlıq arıçılıq və əmtəəlik arıçılıq istiqamətlərində həyata keçirilir. Arıçılıq təsərrüfatları hüquqi və fiziki şəxslər tərəfindən qanunvericilikdə müəyyən edilmiş qaydada yaradılır.

Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinin, əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin, xarici hüquqi şəxslərin Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həvəskar və peşəkar arıçılıqla məşğul olmaq hüququ vardır.

Qanunvericiliyə görə, arıçılıq təsərrüfatları dövlət, bələdiyyə və ya xüsusi mülkiyyətdə ola bilərlər.

Arıçılıq təsərrüfatlarının eyni ərazidə və müxtəlif bölgələrdə bir və bir neçə arıxanası ola bilər.

***Hüquqi və fiziki şəxslərin mülkiyyətində olan arı ailələrinin, arıxanaların və arıçılıq təsərrüfatlarının say tərkibinə məhdudiyyət qoyulmur.***

Damazlıq arıçılıq təsərrüfatları əsasən yüksək məhsuldar ana arılarının və arı ailələrinin yetişdirilməsi və təkrar istehsalı ilə məşğul olur, onların təşkili və fəaliyyəti Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun həyata keçirilir.

## Vergi rejimi

«Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Qanuna edilmiş dəyişikliklərə görə, kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən, sənaye üsulu ilə) 2014-cü il yanvarın 1-dən başlayaraq 5 il müddətinə aşağıdakı vergiləri ödəməkdən azaddırlar:

**Mənfəət vergisi**
**Əlavə dəyər vergisi**
**Sadələşdirilmiş sistem üzrə vergi**
**Əmlak vergisi**

Vergi Məcəlləsinin 102.1.11-ci maddəsinə əsasən, fiziki şəxslərin bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından əldə etdikləri **gəlirlər vergidən azaddır.** Məcəllənin 106.1.14-cü maddəsinə görə, hüquqi şəxslər də 2014-cü il yanvarın 1-dən 5 il müddətinə **mənfəət vergisi ödəməkdən azaddırlar.** Kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən, sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışı üzrə dövriyyələri **ƏDV ödəməkdən azaddır.** *(Maddə 164.1.18).* Eyni zamanda kənd təsərrüfatı heyvanlarının və quşların profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının idxalı da ƏDV-dən azaddır. Məcəllənin 199.9-cu maddəsinə görə, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) hüquqi və fiziki şəxslər həmin fəaliyyət prosesində istifadə olunan əmlaka görə 5 il müddətinə **əmlak vergisini ödəməkdən azaddırlar.** Kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən, sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışından əldə edilmiş hasilatın həcmi 2019-cü il yanvarın 1-nə qədər **sadələşdirilmiş verginin vergitutma obyektinə daxil edilmir.** (Maddə 219.7.)

Qanunvericiliyə uyğun olaraq kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq edilən müddətli vergi güzəştləri əsas fəaliyyəti arıçılıq inventarı və avadanlığı hazırlamaq olan fiziki və hüquqi şəxslərə şamil olunur.

## Arıçılıq təsərrüfatlarının hüquqları və vəzifələri

Arıçılıq təsərrüfatları qanunvericilikdə müəyyən edilmiş qaydada sahibkarlıq fəaliyyətini sərbəst həyata keçirmək, o cümlədən ana arıları və arı ailələrini yetişdirmək, saxlamaq, arıçılıq məhsullarının dövriyyəsi ilə məşğul olmaq, arı ailələrindən entomofil bitkilərin tozlandırılmasında istifadə etmək və həmin məqsədlə onları icarəyə vermək, arıları və arıçılıq məhsullarını idxal və ixrac etmək, sərgilərdə, yarmarkalarda iştirak etmək hüquqlarına və qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlara malikdirlər.

Arıçılıq təsərrüfatları müvafiq qanunvericiliyin, o cümlədən arıçılığa dair normativ sənədlərin tələblərinə, baytarlıq (baytarlıq-sanitariya) qaydalarına riayət etmək, arıçılıq sahəsində dövlət nəzarətinin həyata keçirilməsi üçün zəruri şərait yaratmaq və nəzarət orqanının verdiyi göstərişləri icra etmək, aidiyyəti üzrə məlumatları (sənədləri) təqdim etmək vəzifələrini və qanunvericilikdə müəyyən edilmiş digər vəzifələri yerinə yetirirlər.

Arıçılıq təsərrüfatları özlərinin fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərinin təmsil və müdafiə edilməsi məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş qaydada qeyri-kommersiya qurumları yarada bilərlər.

Arıçılığın inkişafını təmin etmək məqsədilə arıçılıq təsərrüfatları dövlət və bələdiyyə mülkiyyətində olan məhsuldar balyığma mənbələrindən mövsümi istifadə edə bilərlər.

Arı ailələrinin meşə, qoruq, yasaqlıq və digər dövlət mülkiyyətində olan ərazilərdən, habelə bələdiyyə mülkiyyətində olan meşə və meşə zolaqları, kolluq və örüş sahələrindən balyığma mənbəyi kimi mövsümi istifadəsinə görə arıxana sahiblərinin pul və ya digər formada haqq ödəmələri tələb olunmur. Göstərilən sahələrdən arıçılıq məqsədləri üçün istifadənin məhdudlaşdırılmasına yol verilmir.

Arıxana sahibləri mövsümi istifadə müddətində balyığma mənbəyi kimi istifadə etdikləri ərazilərin mühafizəsinə dair qanunvericiliyin tələblərinə əməl etməlidirlər.

## Arıçılıqda mülkiyyət hüququ

Arıxanalarda olan arı ailəsi, arı beçəsi və arıçılıq sahəsində fəaliyyəti həyata keçirmək üçün lazım olan alət, ləvazimat, avadanlıq və tikililər arıxana sahiblərinə mülkiyyət və (və ya) istifadə hüququnda mənsub ola bilər.

Hüquqi və fiziki şəxslər arıxanalarından başqa əraziyə uçub getmiş və orada məskunlaşmış və ya yad pətəyi tutmuş arı ailəsini (təbii arı beçəsini) müntəzəm izlədikləri halda həmin arı ailəsini (arı beçəsini) öz əmlakı kimi yığıb geri qaytarmaq hüququna malikdirlər.

Hüquqi və fiziki şəxslərin arıxanalarından uçmuş arı beçəsi başqaları ilə birləşərək bir yerə toplanarsa, birləşmiş arı beçələri həmin şəxslərin ümumi mülkiyyəti hesab olunur və onun bölünməsi, o cümlədən birləşmiş arı beçəsinin özgəninkiləşdirilməsindən əldə edilən pul vəsaitinin arı beçəsinin sayına uyğun bölünərək sahiblərinə ödənilməsi tərəflər arasında razılaşmaya əsasən həyata keçirilir.

Yad ərazidə məskunlaşmaq və ya yad pətəyi tutmaqla əlaqədar zərər vurulduğu halda zərərçəkən qanunvericilikdə nəzərdə tutulmuş qaydada əvəz ödənilməsini tələb edə bilər.



## Həvəskar və peşəkar arıçılar kimlərdir?

Hər bir şəxs seçimindən asılı olaraq arıçılıqla həvəskar və ya peşəkar şəkildə məşğul ola bilər. Bunun üçün müvafiq tələblərə əməl etməlidir. Bütün bunlar Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 116 nömrəli Qərarı ilə təsdiq edilmiş "**Həvəskar və peşəkar arıçılıqla məşğul olma Qaydası**" ilə tənzimlənir.

Qaydaya görə, Azərbaycan Respublikasının vətəndaşları, hüquqi və fiziki şəxsləri, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər həvəskar və peşəkar arıçılıqla məşğul ola bilərlər.

### *Həvəskar arıçılar*

Qaydaya görə, əsas iş yerindən əlavə, məşğuliyyət kimi özəl təsərrüfatında standart gücə uyğun arıxanası olan şəxslər **həvəskar arıçılardır.** Həvəskar arıçılar arıçılıqla əlaqədar bilikləri, qulluq və saxlama qaydalarını onlar üçün təşkil edilmiş kurslarda, peşəkar arıçılardan, bu sahəyə aid ədəbiyyatlardan və təlimatlardan öyrənirlər. Həvəskar arıçı «Arıçılıq haqqında» Azərbaycan Respublikasının Qanununda göstərilən tələblərə ciddi əməl edir.

Həvəskar arıçılıq təsərrüfatlarına baytarlıq (baytar sanitariya) pasportu (şəhadətnaməsi) verilir.

### *Peşəkar arıçılar*

Peşəkar arıçılara arıçılıq sahəsində kursları, ali, orta və peşə məktəblərini bitirən, standart gücə uyğun arı ailəsi saxlayan fiziki və hüquqi şəxslər daxildirlər. Peşəkar arıçı arıxanada damazlıq-seleksiya işlərini aparır, bu sahəyə elmin nailiyyətləri və qabaqcıl təcrübəni tətbiq edir, damazlıq işini yaxşılaşdırmaq məqsədi ilə ana arıları və arı ailələri yetişdirib satır.

*Yüzdən artıq arı ailəsi olan, mövcud yerli standartlara cavab verən, 100 faiz arı genofonduna uyğun təmizlikdə yetişdirilən, arıxanada arı ailəsinin 40 faizi yüksək bonitirə sinfinə aid olan və hər an ailəsindən 15-20 kq bal alan təsərrüfatlar peşəkar arıçının arıxanası hesab edilir.*

Qanunvericiliyə görə, özəl damazlıq işi ilə məşğul olan peşəkar arıçının arıxanası standart gücə malik arı ailələrindən ibarət olduğu təqdirdə, dövlət reyestrinə daxil edilir və onlara Kənd Təsərrüfatı Nazirliyinin şəhadətnaməsi verilir.

Bütün peşəkar arıçılıqla məşğul olan təsərrüfatlara baytarlıq-sanitariya pasportu (şəhadətnaməsi) verilir.

Peşəkar arıçının təsərrüfatı əmtəəlik arıçılıq məhsulları istehsal edir, onun satışı ilə məşğul olur, yarmarkalarda və sərgilərdə iştirak edir. Peşəkar arıçının damazlıq təsərrüfatı əsasən yüksək məhsuldar ana arılarının və ailələrinin yetişdirilməsi, reproduksiya edilməsi və təkrar istehsalı ilə məşğul olur.



## Bal arısı cinsləri və populyasiyaları ölkəyə gətirilə bilərmi?

Azərbaycan Respublikasında yerli bal arısı genefonduna Bozdağ Qafqaz arı cinsinin Qabaqtəpə və Qonaqkənd arı populyasiyaları, Sarı Qafqaz arı cinsinin Azərbaycan, Naxçıvan və Talış populyasiyaları daxildir. Arıçılıqda damazlıq işini düzgün təşkil etmək və onun məhsuldarlığını artırmaq, bal arısı cinslərinin və populyasiyalarının genofondunun qorunub saxlanılmasını, təkmilləşdirilməsini, onların çoxaldılmasını və istifadəsinin yaxşılaşdırılmasını təmin etmək üçün bal arısı cinsləri və populyasiyaları rayonlaşdırılır, onların ayrılıqda uçotu aparılır.

Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 116 nömrəli Qərarı ilə təsdiq edilmiş **"Bal arısı cinslərinin və populyasiyalarının rayonlaşdırılması Qaydası"**na əsasən, bal arısı cinslərini və onların populyasiyalarını müxtəlif mövsümlərdə illik nektar gəliri və su mənbələri ilə fasiləsiz təmin etmək məqsədi ilə onların respublikanın aran, dağətəyi və dağlıq bölgələrinə il ərzində 4-5 dəfə köçürülməsi nəzərə alınaraq, rayonlaşdırılması təmin edilməlidir.

Təbii coğrafi iqlim şəraitinə uyğunlaşması və xəstəliklərə dözümlülüyü, eyni zamanda bitki örtüyünə olan tələbatı nəzərə alınaraq, arı ailələrini köçürmək məqsədi ilə bal arısı cinsləri və populyasiyaları aşağıdakı kimi rayonlaşdırılır:

| Bal arısı cinslərinin adı | Bal arısı cinslərinin populyasiyaları | Rayonların adları | Köçürülən ərazilər |
|---|---|---|---|
| Bozdağ Qafqaz | Qabaqtəpə | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy, Bərdə, Tərtər, Füzuli, Qubadlı, Zəngilan, Laçın və Cəbrayıl, Əsgəran, Ağdərə, Şuşa, Xocalı, Kəlbəcər | Kiçik Qafqazın dağlıq və dağətəyi bölgələri: Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy, Şəmkir, Qubadlı, Zəngilan, Laçın, Cəbrayıl, Əsgəran, Ağdərə, Şuşa, Xocalı, Füzuli, Kəlbəcər, Samux Aran bölgələri: Qazax, Ağstafa, Tovuz, Bərdə, Yevlax, Ağdaş, Göyçay, Kürdəmir, Ağcabədi, Beyləqan, Saatlı, Sabirabad, İmişli |
| | Qonaqkənd | Qusar, Quba, Xaçmaz, Şabran, Xızı, Siyəzən, Abşeron, Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala və Balakən | Böyük Qafqazın dağlıq və dağətəyi bölgələri: Quba, Qusar, Xızı, Qobustan, Şamaxı, İsmayıllı, Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala, Balakən Aran bölgələri: Xaçmaz, Şabran, Siyəzən, Abşeron |

| | | | |
|---|---|---|---|
| Sarı Qafqaz | Azərbaycan | Yevlax, Mingəçevir, Ağdaş, Göyçay, Kürdəmir, Ağcabədi, Beyləqan, Saatlı, Ucar, Zərdab, Sabirabad, İmişli, Neftçala, Salyan, Biləsuvar, Hacıqabul, Füzuli, Şirvan, Ağdam, Xocavənd | Aran bölgələri: Yevlax, Ağdaş, Göyçay, Kürdəmir, Ağcabədi, Beyləqan, Saatlı, Sabirabad, İmişli, Neftçala, Salyan, Biləsuvar, Hacıqabul, Mingəçevir, Şirvan, Ağdam Dağlıq və dağətəyi bölgələr: Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy, Şəmkir, Qubadlı, Zəngilan, Laçın, Cəbrayıl, Əsgəran, Ağdərə, Şuşa, Xocalı, Füzuli, Xocavənd |
| | Talış | Astara, Lənkəran, Masallı, Lerik, Yardımlı və Cəlilabad | Talış dağlarının dağlıq, dağətəyi və aran bölgələri: Astara, Lənkəran, Masallı, Lerik, Yardımlı və Cəlilabad |
| | Naxçıvan | Naxçıvan Muxtar Respublikası | Naxçıvan Muxtar Respublikasının dağlıq, orta dağlıq və düzənlik əraziləri: Ordubad, Şahbuz, Sədərək, Babək, Culfa və Kəngərli |

Arıçılıq subyektləri (həvəskar arıçılar istisna olmaqla) arı cinslərinin və onların populyasiyalarının rayonlaşdırılması prinsiplərinə riayət etməyə borcludurlar.

**DİQQƏT!** *Bir rayonda yuxarıda qeyd olunan arı cinsləri və onların populyasiyalarından başqa, digər cinslərin yetişdirilməsinə və saxlanılmasına yol verilmir.*

Yerli arı genofondunun mühafizəsi və arı xəstəliklərinin yayılmasının qarşısının alınması üçün Kənd Təsərrüfatı Nazirliyinin razılığı olmadan bal arısının ölkə ərazisinə kənardan gətirilməsi və ölkə ərazisindən çıxarılması **qadağandır.**

### *Rayonlaşdırılmamış arı cinsləri hansı halda ölkə ərazisinə gətirilə bilər?*

Rayonlaşdırılmamış arı cinslərinin ölkə ərazisinə gətirilməsi forması Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 116 nömrəli Qərarı ilə təsdiq edilmiş **"Rayonlaşdırılmamış arı cinslərinin Azərbaycan Respublikasının ərazisinə gətirilməsi Qaydası"** əsasında tənzimlənir. Qaydaya görə, arıçılıq subyektləri ölkəyə rayonlaşdırılmamış arı cinsləri gətirməmişdən əvvəl Kənd Təsərrüfatı Nazirliyinə ərizə ilə müraciət edir və ərizədə arı cinsinin gətirilməsinin məqsəd və səbəblərini göstərir. Ərizəyə həmin arı cinsinin məhsuldarlığını və bioloji xüsusiyyətlərini əks etdirən məlumatlar əlavə olunur.

***Yalnız Kənd Təsərrüfatı Nazirliyinin icazəsindən sonra, xarici ölkələrdən Azərbaycan Respublikasına arı cinsləri idxal edilə bilər.***

Arı ailələrində keçici arı xəstəlikləri olan ölkələrdən arı cinslərinin və onların populyasiyalarının gətirilməsinə yol verilmir.

Azərbaycan Respublikasına xarici ölkələrdən rayonlaşdırılmamış arı cinsləri və onların populyasiyaları Akademik F.Ə.Məlikov adına Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq İnstitutu, Azərbaycan Elmi-Tədqiqat Baytarlıq İnstitutu, Milli Elmlər Akademiyasının müvafiq institutları və müqavilə əsasında layihələrin həyata keçirilməsi ilə əlaqədar digər müvafiq təşkilatlar tərəfindən elmi tədqiqatlar aparmaq və onları sınaqdan keçirmək məqsədi ilə gətirilə bilər.

Ölkəyə idxal olunmuş arı cinsləri, onların ailələri dövlət damazlıq və baytarlıq qanunvericiliyinin tələblərinə uyğun olaraq, yerli arıxanalardan təcrid olunmuş formada saxlanılır.

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin icazəsi ilə xaricdən gətirilmiş, elmi tədqiqat sınaqlarından keçmiş və respublikanın təbii-iqlim şəraitinə uyğunlaşmış arı cinslərinin üzərində damazlıq-seleksiya işləri aparılır.



**Ölkədən kənara çıxarılmasına məhdudiyyət qoyulan damazlıq arı növləri**

Qabaqtəpə arı cinsi və Lənkəran boz arı populyasiyası

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 avqust tarixli 190 nömrəli qərarı ilə təsdiq edilib

## Əhalinin təhlükəsizliyi üçün arıxanaların yerləşdirilməsi məsafəsi



Qüvvədə olan qanunvericilik əhalinin təhlükəsizliyinin təmin olunması üçün arıxanaların səhiyyə, təhsil və mədəniyyət müəssisələrindən müəyyən məsafədə yerləşdirilməsini tələb edir. Nazirlər Kabinetinin 26 oktyabr 2009-cu il tarixli, 169 saylı Qərarı ilə təsdiq edilmiş **"Əhalinin təhlükəsizliyinin təmin olunması üçün səhiyyə, təhsil, mədəniyyət müəssisələrindən arıxanaların yerləşdirilməsi məsafəsi və yerləşdirilmə Qaydası"**na əsasən, arıların insanları sancmasının və bununla əlaqədar arı ailələrinə insanlar tərəfindən ziyan vurmasının qarşısını almaq üçün qabaqlayıcı tədbirlər həyata keçirilməlidir.

Qaydaya görə, arıxanalar əhalinin sıx yaşadığı və toplaşdığı ərazilərdən 1-3 km, qənnadı məmulatları və kimya müəssisələrindən 5 km, səhiyyə, təhsil və mədəniyyət müəssisələrindən 1,5 km, heyvandarlıq və quşçuluq sənayesi müəssisələrindən isə 1 km aralı məsafədə yerləşdirilməlidir.

Şəhərlərin yaşıllıq zolaqlarında 5-20 arı ailəsindən ibarət arıxanaların saxlanmasına təsərrüfat 2 metr hündürlükdə arakəsmələr vasitəsilə hasara alındıqda icazə verilir. Şəhərlərdə nektarlı bitkilər olmadıqda və ya bal yığımı mövsümü başa çatdıqda, arıların əhalinin yaşayış yerlərinə gəlmələrinin qarşısını almaq üçün arıxanalar şəhərlərdən kənar ərazilərə köçürülür. Təhlükəsizlik qaydalarına uyğun olaraq hər bir arıxana, ilk tibbi yardım göstərmək üçün dərman vasitələri ilə təmin edilir. Arı sancmış şəxsə arıxanada ilk tibbi yardım göstərilməlidir. Ehtiyac olduğu təqdirdə, həmin şəxs səhiyyə müəssisəsində müalicə olunur.

***DİQQƏT! 6 yaşınadək azyaşlı və körpə uşaqların özbaşına arıxanalara daxil olmalarına icazə verilmir.***

Arıxanalar səhiyyə, təhsil və mədəniyyət müəssisələri istisna olmaqla nektar verən, yaşıllıqları olan və su mənbəyinə yaxın ərazilərdə yerləşdirilir. Səhiyyə, təhsil, mədəniyyət müəssisələrinin yaxınlığında, ümumi yaşayış yerlərində və parklarda arıxanaların yerləşdirilməsi yol verilməzdir.

## Arıçılıq sahəsində dövlət nəzarəti




Arıçılıq sahəsində dövlət nəzarəti Kənd Təsərrüfatı Nazirliyi tərəfindən həyata keçirilir və Nazirlər Kabinetinin 2010-cu il 25 yanvar tarixli 19 nömrəli qərarı ilə təsdiq edilmiş **Arıçılıq sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası** əsasında tənzimlənir.

Qaydaya görə, arıçılıq sahəsində dövlət nəzarəti aşağıdakıları əhatə edir:

- *bal arı cinsləri və populyasiyaları genofondunun qorunub saxlanılmasını;*
- *arıçılıq subyektləri tərəfindən müvafiq qanunvericiliyə, habelə arıçılığa dair normativ sənədlərin tələblərinə, baytarlıq (baytarlıq-sanitariya) qaydalarına riayət edilməsini;*
- *keyfiyyətli arıçılıq məhsulları istehsalının və dövriyyəsinin təmin olunmasını və s.*

Arıçılıq sahəsində dövlət nəzarətini həyata keçirən Kənd Təsərrüfatı Nazirliyinin nümayəndələri aşağıdakı səlahiyyətlərə malikdirlər:

- *mülkiyyət formasından asılı olmayaraq, respublika daxilində fəaliyyət göstərən, arıçılıqla məşğul olan subyektlərin müvafiq qanunvericiliyin, o cümlədən arıçılığa dair normativ sənədlərin tələblərinin yerinə yetirilməsinə nəzarət etmək və həmin qanunvericiliyi pozan şəxslər haqqında qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;*
- *arıçılıqla məşğul olan subyektlərdən müvafiq məlumatlar almaq;*
- *damazlıq arıçılıq sahəsində mübahisəli məsələlər üzrə ekspert rolunda çıxış etmək;*
- *müvafiq qaydada keyfiyyətinin təmin edilməsi üçün arı məhsullarından nümunələr götürmək;*
- *arıçılıq fəaliyyəti subyektlərinin mütəxəssislərindən və maddi-texniki vasitələrindən yoxlamanın məqsədləri üçün əvəzsiz istifadə etmək.*

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan arıçılıq subyektlərində dövlət nəzarəti "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunda nəzərdə tutulmuş hallarda və qaydada həyata keçirilir.

***Dövlət nəzarətinin aparılması qaydaları, formaları və müddəti***

Arıçılıq təsərrüfatlarında yoxlamalar, araşdırmalar aparılarkən bu barədə arıçılıq subyektləri əvvəlcədən məlumatlandırılmalıdır. **Yoxlama 10 gündən artıq davam edə bilməz.** Zərurət yarandıqda, yoxlama müddəti səlahiyyətli orqanın rəhbərinin qərarı ilə **30 günə qədər artırıla bilər.**

Arıçılıq fəaliyyəti subyektlərində nəzarət tədbirlərinin keçirilməsi barədə səlahiyyətli orqanın rəhbərinin imzası və orqanın möhürü ilə təsdiq olunmuş sərəncam verilir.

**Sərəncamdakı məlumatlar aşağıdakılardır:**

- *nəzarət tədbirlərini aparacaq əməkdaşın soyadı, adı və vəzifəsi;*
- *nəzarət tədbirlərinin aparılmasının əsası və məqsədi;*
- *nəzarət tədbirlərinin aparılacağı arıçılıq fəaliyyəti subyektinin rekvizitləri;*
- *nəzarət tədbirlərinin müddəti.*

Yoxlamalar və araşdırmalar iş vaxtı təsərrüfata ziyan vurmadan, işlərin gedişinə xələl gətirmədən, arıçılıq subyektlərinin təklifləri nəzərə alınmaqla aparılır.

Dövlət nəzarəti **iki ildə bir dəfədən çox olmamaqla,** səlahiyyətli orqan tərəfindən ilin əvvəlində təsdiq edilmiş plan üzrə qüvvədə olan qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

İcrası məcburi olan göstərişlər yerinə yetirilmədikdə və aradan qaldırılması mümkün olmayan nöqsanlar və ya qanun pozuntuları aşkar edildikdə, **arıçılıq sahəsində fəaliyyətin dayandırılması barədə məhkəməyə müraciət olunur.**

***Aşkar olunmuş pozuntular barədə görülən tədbirlər***

Arıçılıqla məşğul olan subyektlərdə aşkar edilmiş nöqsanların və qanun pozuntularının aradan qaldırılması üçün onlara qanunvericiliklə müəyyən edilmiş qaydada icrası məcburi olan göstərişlər yazılı formada verilir. Onların fəaliyyətində insanların sağlamlığı, ətraf mühitin çirklənməsi üçün təhlükə yarandıqda, aidiyyəti dövlət orqanlarının iştirakı ilə təkrar yoxlamalar aparıla bilər.

Nəzarət tədbirlərinin nəticələri iki nüsxədə tərtib olunur və aktla rəsmiləşdirilir. Aktın bir nüsxəsi arıçılıq fəaliyyəti subyektinin rəhbərinə və ya səlahiyyətli nümayəndəsinə təqdim edilir, digəri isə səlahiyyətli orqanda saxlanılır. Arıçılıq fəaliyyəti subyektinin rəhbəri və ya səlahiyyətli nümayəndəsi aktı imzalayarkən öz rəyini əlavə etmək hüququna malikdir.

**Tərtib olunmuş aktda aşağıdakı məlumatlar olmalıdır:**

- *nəzarət tədbiri aparılan hüquqi və fiziki şəxs haqqında məlumatlar (ünvanı, rəhbərin və səlahiyyətli nümayəndənin soyadı, adı, atasının adı, VÖEN);*
- *nəzarət tədbirinin adı, aparılmasının hüquqi əsası, səbəbləri və müddəti;*
- *nəzarət tədbiri zamanı araşdırılan hallar, yoxlamaq üçün götürülən nümunələr (arı məhsullarından bal, arı südü, arı mumu, çiçək tozu, güləm, arı zəhəri, vərəmumun fiziki-kimyəvi göstəricilərinin müayinəsi üçün 150 qram, mikrobioloji göstəricilərinin müayinəsi üçün 100 qram, antibiotiklərin müayinəsi üçün 100 qram), onların qiyməti və məhsulun miqdarı haqqında məlumatlar;*
- *nəzarət tədbirinin nəticələri.*

Standartlara və tələblərə cavab verməyən arıçılıq məhsullarının götürülməsi, zərərsizləşdirilməsi və ya məhv edilməsi səlahiyyətli orqanın müraciətinə müvafiq olaraq məhkəmənin qərarına əsasən həyata keçirilir. Hüquqi və fiziki şəxslər arıçılıq sahəsində dövlət nəzarətini həyata keçirən orqanın qəbul etdiyi qərarlardan və vəzifəli şəxslərin hərəkətlərindən inzibati qaydada və ya məhkəməyə şikayət edə bilərlər.

## Damazlıq arıçılıq təsərrüfatlarının attestasiyadan keçirilməsi

Damazlıq arıçılıq təsərrüfatlarının attestasiyadan keçirilməsi və onların damazlıq təsərrüfat növünün müəyyən edilməsi prosedurları Kənd Təsərrüfatı Nazirliyinin 26 aprel 2012-ci il tarixli, 03 Q saylı Qərarı ilə təsdiq edilmiş **Damazlıq heyvandarlıq təsərrüfatlarının attestasiyadan keçirilməsi və onların damazlıq təsərrüfat növünün müəyyən edilməsi Qaydaları** əsasında tənzilənir.

Qaydaya görə, damazlıq arıçılıq təsərrüfat növünün müəyyən edilməsi üçün Kənd Təsərrüfatı Nazirliyinin beş nəfər mütəxəssisindən ibarət Attestasiya Komissiya yaradılır.

Attestasiya Komissiyasının səlahiyyətlərinə aşağıdakılar daxildir:

- *damazlıq arıçılıq təsərrüfatlarının attestasiyadan keçirilməsi;*
- *həmin təsərrüfatların növünün müəyyən edilməsi;*
- *attestasiyanın keçirilmə qaydaları, tarixi barədə attestasiyanın keçirilməsinə 15 gün qalmış yazılı bildirişin göndərilməsi.*

Damazlıq arıçılıq təsərrüfatlarının hər hansı bir fəaliyyət növünə aid edilməsi hər bir arı növü və cinsi üzrə təsdiq edilmiş normalar, tələblər və şərtlər əsasında həyata keçirilir.

Arıçılıq üzrə aşağıdakı norma tətbiq edilir:

- 100 faiz təmiz cins olmaqla, 40 faiz arı ailəsinin yüksək bonitirə sinifinə aid olması, 50 faiz damazlıq arı paketinin, hər arı ailəsinə görə 10 ədəd ana arının satılması, hər arı ailəsindən 20 kq balın alınması, qışda arıların çıxdaşının 10 faizdən çox olmaması.

Sahibkarın damazlıq təsərrüfat növü ilə məşğul olması üçün təsərrüfatda **ən azı 150 ədəd arı ailəsinin** olması zəruri şərtlər hesab edilir.

Damazlıq arıçılıq təsərrüfatlarının növünün müəyyən edilməsi üçün hüquqi və ya fiziki şəxslər Kənd Təsərrüfatı Nazirliyinə ərizə təqdim edirlər. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

*- ərazi kənd təsərrüfatı idarəsi rəisinin təqdimat məktubu;*

*- hüquqi şəxsin dövlət reyestrindən çıxarışın surəti;*

*- fiziki şəxsin şəxsiyyət vəsiqəsinin surəti;*

*- fiziki şəxsin təhsil haqqında diplomunun surəti;*

*- fiziki şəxsin vergi orqanlarında uçota alınması haqqında şəhadətnamənin surəti;*

*- torpağa mülkiyyət və ya icarə hüququnu təsdiq edən sənədin surəti;*

*- təsərrüfatın son 3 illik göstəriciləri barədə sənəd;*

*- təsərrüfatın damazlığa yarayıb-yaramaması barədə rayonun baş zootexnikinin və baş baytar həkiminin arayışları.*

Müraciət yazılı və ya elektron formada təqdim edilir. Kənd Təsərrüfatı Nazirliyi sahibkar müraciət etdikdən sonra bir ay müddətində sənədlərə baxaraq, sənədlərin bu Qaydalarda göstərilən tələblərə və şərtlərə uyğun olub-olmadığını araşdırmalı və nəticədən asılı olaraq bu barədə sahibkara yazılı məlumat verməklə toplanmış sənədləri damazlıq arıçılıq təsərrüfatlarının növünü müəyyən etmək üçün Attestasiya Komissiyasına təqdim edir. Təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə bu barədə hüquqi və ya fiziki şəxsə yazılı məlumat verilir. Hüquqi və fiziki şəxslər tərəfindən 10 gün müddətində çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sənədlər təkrar təqdim olunur.

### *Damazlıq arıçılıq təsərrüfatlarına şəhadətnamənin verilməsi*

Attestasiya Komissiyası damazlıq arıçılıq təsərrüfatlarının növünü müəyyən etmək üçün təsərrüfatları attestasiyadan keçirir. Damazlıq arıçılıq təsərrüfatlarının attestasiyası beş ildən bir keçirilir. Attestasiyadan keçirilmiş təsərrüfatların növü müəyyən edildikdən sonra hüquqi və fiziki şəxslərə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən həmin damazlıq arıçılıq təsərrüfat növü ilə fəaliyyət göstərmək hüququ verən şəhadətnamə verilir. (**Nümunə 1**).

Şəhadətnamə itdikdə və ya məhv olduqda şəhadətnamənin yenidən alınması üçün Kənd Təsərrüfatı Nazirliyinə müraciət oluna bilər. Hüquqi və fiziki şəxs şəhadətnamədən yalnız özü istifadə edə bilər. Şəhadətnamə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən xüsusi formada nəşr edilir, ardıcıl nömrələnir və xüsusi jurnalda uçotu aparılır.

## Baytarlıq-sanitariya pasportunun (şəhadətnaməsinin) alınması

Mülkiyyət formasından asılı olmayaraq, uçota alınmış arıxanalarda müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi məqsədi ilə arıxanalara baytarlıq-sanitariya pasportu (şəhadətnaməsi) verilir. Pasport (şəhadətnamə) Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti və onun yerli orqanları tərəfindən verilir.

Pasport (şəhadətnamə) verilməsi qaydası və forması Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 116 nömrəli Qərarı ilə təsdiq edilmiş **"Arıxanalara baytarlıq-sanitariya pasportunun (şəhadətnaməsinin) verilmə Qaydası və Forması"** əsasında müəyyənləşdirilir.

Arıçılıqla məşğul olmaq istəyən şəxslər pasport (şəhadətnamə) almaq üçün müvafiq dövlət baytarlıq orqanına ərizə ilə müraciət edirlər.

**Ərizədə aşağıdakılar öz əksini tapmalıdır:**

*hüquqi şəxslər üçün - hüquqi şəxsin adı, hüquqi ünvanı;*

*fiziki şəxslər üçün - soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən vəsiqə haqqında məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı).*

Ərizə ilə birlikdə aşağıdakı sənədlər təqdim olunmalıdır:

- arıçılıq təsərrüfatları barədə məlumat;
- arı ailələrinin miqdarı (hər növ üzrə) barədə məlumat;
- arıçılıq təsərrüfatlarının uçota alınması barədə bildiriş;
- arıçılıq təsərrüfatlarının yerləşdiyi yer barədə məlumat.

Arıçılıq təsərrüfatlarına pasport (şəhadətnamə) almaq üçün təqdim edilən sənədlər pasport (şəhadətnamə) verən orqan tərəfindən qəbul edilir, qeydə alınır. Ərizə daxil olduğu gündən 10 gün müddətində arıxanaya baxış keçirildikdən sonra çatışmazlıqlar və ya imtina üçün əsas olmadıqda, pasport (şəhadətnamə) həmin gün verilir.

Pasport (şəhadətnamə) **Nümunə 1-dəki** Formaya uyğun tərtib edilir və kötüyü qaytanlanmış jurnalda qeyd edilməklə saxlanılır. Pasportda (şəhadətnamədə) dəyişiklik və düzəlişlərin aparılmasına yol verilmir.

Arıçılıq təsərrüfatının rəhbəri ona verilmiş pasportdan (şəhadətnamədən) yalnız özü istifadə edə bilər.

Pasport (şəhadətnamə) müvafiq blanklarda Azərbaycan dilində tərtib edilir. Bu pasport (şəhadətnamə) onu verən orqanın rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və imza həmin orqanın möhürü ilə təsdiq edilir. Pasportda (şəhadətnamədə) arıçılıq təsərrüfatının rəhbərinin imzası olur.

**Nümunə 1**

**BAYTARLIQ - SANİTARİYA PASPORTUNUN(ŞƏHADƏTNAMƏSİNİN) FORMASI**

Pasport (şəhadətnamə) №_____

Mən, aşağıda imza edən baytar həkimi, həmin baytarlıq şəhadətnaməsini vermişəm.

______________________________________________

(təsərrüfatın adı, sahibkarın soyadı, adı və atasının adı)

ona görə ki, ona məxsus arıxanada miqdarda arı ailəsi

______________________________________________yerləşir

(yerin adı, ünvanı)

Baytarlıq tədbirlərinin aparılması həvalə edilir________________

______________________________________________

(baytar mütəxəssisinin soyadı, adı və atasının adı)

Verilmə tarixi «______»______________20_____il

Rayonun baş baytar həkimi______________________________

(soyadı, adı və atasının adı)

M.Y.

Arıçılıq təsərrüfatının rəhbəri_______________

______________________________________________

(soyadı, adı və atasının adı, imza)

***DİQQƏT:*** *Pasport (şəhadətnamə) və ya onun surəti müxtəlif xətlə, rənglə və şriftlə yazıldıqda, düzəliş edildikdə, möhürsüz olduqda, yaxud möhür aydın oxunmadıqda, sənədi imzalayan mütəxəssisin vəzifəsi və soyadı, adı, atasının adı, imzası qeyd edilmədikdə və sənədin verilmə tarixi, həmçinin tələb olunan digər məlumatlar göstərilmədikdə, etibarsız sayılır.*

Pasportun (şəhadətnamənin) verilməsindən imtina edildikdə, bu barədə ərizəçiyə imtinanın səbəbləri göstərilməklə, 3 iş günü müddətində yazılı məlumat verilir. Pasportun (şəhadətnamənin) verilməsindən imtina barədə qərardan aidiyyəti dövlət orqanına və ya məhkəməyə şikayət verilə bilər.

***Hüquqi şəxs ləğv edildikdə, həmin şəxsə verilən müvafiq pasport (şəhadətnamə) öz hüquqi qüvvəsini itirir. Vəfat etmiş fiziki şəxsin adına verilən pasport (şəhadətnamə) onun varisləri üçün həmin sənədlərdə göstərilən müddət və şərtlərlə öz qüvvəsini saxlayır.***

Hüquqi şəxs yenidən təşkil edildikdə, onun adı və fiziki şəxsin şəxsiyyət sənədinə dair məlumatlar (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir, ünvanı) dəyişdikdə, yaxud pasport (şəhadətnamə) itirildikdə, ərizəçi 10 gün müddətində pasportun (şəhadətnamənin) yenidən rəsmiləşdirilməsi üçün ərizə təqdim etməlidir.

Pasport (şəhadətnamə) yenidən rəsmiləşdirildiyi müddətdə ərizəçi öz fəaliyyətini əvvəlki pasport (şəhadətnamə) əsasında, pasport (şəhadətnamə) itirildikdə isə müvafiq dövlət orqanlarının verdiyi dublikat əsasında həyata keçirir. Pasport (şəhadətnamə) və ya onun dublikatı müvafiq dövlət orqanının rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və imza həmin orqanın möhürü ilə təsdiq edilir.

***Arıçılıq təsərrüfatı ləğv edildikdə pasport (şəhadətnamə) müvafiq dövlət baytarlıq idarəsinə qaytarılır.***

Arıxanalara verilən pasport (şəhadətnamə) aşağıdakı hallarda ləğv edilir:

- pasport (şəhadətnamə) sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;
- pasport (şəhadətnamə) sahibi tərəfindən "Arıxanalara baytarlıq-sanitariya pasportunun (şəhadətnaməsinin) verilmə Qaydası"nın tələblərinə əməl edilmədikdə;
- pasportun (şəhadətnamənin) verilməsi üçün təqdim edilən sənədlərdə qeyri-dürüst və təhrif olunmuş məlumat aşkar edildikdə;
- arıçılıq təsərrüfatlarının məhsulları təhlükəsizlik və keyfiyyət normalarına uyğun olmadıqda və bunun nəticəsində insanların həyat və sağlamlığına təhlükə törədə biləcək hallar aşkar edildikdə;
- ölkə ərazisində epizootik vəziyyət dəyişdikdə;
- məhkəmənin müvafiq qərarı olduqda;
- hüquqi şəxs ləğv edildikdə;

Pasport (şəhadətnamə) verən müvafiq dövlət baytarlıq orqanı pasportun (şəhadətnamənin) ləğv edilməsi haqqında qərar qəbul etdiyi andan 3 (üç) gün müddətində yazılı surətdə pasportun (şəhadətnamənin) sahibinə məlumat göndərir.

## Arı məhsullarının keyfiyyətinə dair dövlət standartları

Arı məhsullarının keyfiyyətinə dair ilk milli dövlət standartları 2015-ci ildən sonra hazırlanıb. 2015-ci ildə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Kollegiyasının Qərarı ilə AZS 731-1-2015 (OIC/SMIIC 1:2011) **"Halal qida. Ümumi rəhbəredici sənəd"** standartı qəbul edilib və təbii bal və arıçılıq məhsulları halal qida kimi xarakterizə edilib.

Standartda qeyd edilir ki, arıların bitkilərdən yığaraq ifraz etdikləri və insan sağlamlığına zərərli olmayan arıçılıq məmulatları (bal, arı şanı, arı südü) halal hesab edilir. Eyni zamanda balın içindən çıxan bal arısının hissələri və qarşısı alınmayan digər parçalar da halal olaraq xarakterizə edilir.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Kollegiyasi 12 fevral 2016-cı il tarixli, 16011500006 saylı Qərarı ilə **AZS 849-2016 "Bal" (CODEX STAN 12-1981)** standartı qəbul edilib və qüvvəyə minib. Bu standart Codex Stan 12 – 1981 «REVISED CODEX STANDARD FOR HONEY» standartının autentik tərcüməsidir. Standartın dövrü yoxlama müddəti 5 ildən birdir və ilkin yoxlama müddəti 2021-ci ilə düşür.

Standart əsasən 2 hissədən ibarətdir. **Birinci hissəsi** arılar tərəfindən istehsal olunan, emala verilən və bilavasitə, insanın istifadəsi üçün nəzərdə tutulan bütün bal növlərinə, **ikinci hissəsi** isə sənayedə tətbiqi üçün və ya digər qida məhsullarının inqrediyenti kimi istifadəsi üçün nəzərdə tutulan bal növlərinə aiddir. 2-ci hissə həmçinin daşınma (nəqliyyat) tarasına qablaşdırılmış, sonradan pərakəndə satış üçün qablaşdırıla bilən bala aid edilir.

***Təbii bal -*** *bal verən arıların çiçəklərin nektarından, həmçinin bitkilərin yarpaq və saplaqlarından topladıqları şirədən və yapışqanlı şirin mayedən istehsal etdiyi, təbii şirin məhsuldur. Nektarı yığarkən arının alt çənə vəzilərindən şirə (sekret) ifraz olunur, yəni fizioloji proses baş verir, nəticədə nektarın tərkibindəki suyun xeyli hissəsi itir və nektar ferment və üzvi turşularla doyur. Nektar şan oyuqlarında yetişməklə bala çevrilir.*

Çiçəklənmə zamanı alınan bal və ya nektar balı, bitkilərin nektarından əmələ gəlir.

Bitki hüceyrə şirəsindən alınan bal – bitki şirəsi ilə qidalanan həşəratların ifraz etdiyi şirin məhlul və bitkilərin yarpaq və saplaqlarından çıxan yapışqanlı şirin şirənin emalının nəticəsidir.

***Balın əsas tərkibi*** *karbohidratlar, ilk növbədə fruktoza və qlükoza, həmçinin üzvi və qeyri-üzvi turşular, fermentlər və mikroelementlərdir.*

***Balın rəngi*** *müxtəlif ola bilər – demək olar ki, tamamilə rəngsizdən, tünd qəhvəyiyə kimi.*

***Konsistensiyasına görə*** *bal duru, qatı, qismən və ya bütünlüklə kristallaşmış olur.*

***Ətri:*** *xoşagələn, bitki növündən asılı olaraq, zəifdən güclüyə kimi.*

Satışa buraxılan təmiz balın tərkibində, baldan başqa heç bir digər yeyinti inqrediyenti, o cümlədən qida əlavələri və ya başqa əlavələr olmamalıdır. Balın tərkibində heç bir kənar maddələr, onun emalı prosesində və saxlanması nəticəsində digər elementlərin təsirindən əmələ gələn iy, dad, qarışıqlar olmamalıdır. Bal fermentasiya və qıcqırmaya məruz qalmamalıdır. Tozcuğu və ya balın hər hansı tərkib hissəsini ayırmaq olmaz, o hallar istisna təşkil edir ki, yad üzvi və ya qeyri- üzvi maddəni kənarlaşdırarkən bu qaçılmaz olur.

**Balın keyfiyyət göstəriciləri**

***Nəmliyin miqdarı***

a) süpürgəkolu balından başqa, balın bütün növləri - ən çoxu 20%

b) süpürgəkolu balı (Calluna) - ən çoxu 23%

***Şəkərlərin miqdarı***

Fruktozanın və qlükozanın miqdarı (ümumi)

a) balın bütün növləri, şirə balı və qarışıq baldan başqa - ən azı 60q/100q

b) şirə balı qarışıq bal (çiçək balının və şirə balının qarışığı)- ən azı 45q/100q

Saxarozanın miqdarı
a) aşağıda qeyd olunmamış bal növləri - ən çoxu 5q/100q
b) qarayoncadan (*Medicago sativa*), sitruslardan - ən çoxu 10q/100q
ağ akasiyadan (*Robinia pseudoacacia*),
fransız doqquzdonundan (*Hedysarum*),
Mensiza banksiyasından (*Banksia menziesii*),
dimdikşəkilli evkaliptdən (*Eucalyptus camaldulensis*).
parlaq evkrifiyadan (*Eucryphia lucida*),
evkrifiyadan (*Eucryphia milligani*)
c) lavandadan (*Lavandula spp.*), - ən çoxu 15q/100q
xiyar otundan (*Borago officinalis*)

***Suda həll olmayan bərk hissəciklərin miqdarı***
a) balın növləri, pres üsulu ilə alınmış baldan başqa - ən çoxu 0,1q/100q
b) pres üsulu ilə alınmış bal - ən çoxu 0,5q/100q

Bal insan sağlamlığı üçün təhlükə yarada biləcək miqdarda ağır metallardan azad olmalıdır. Pestisidlərin və baytarlıq dərman preparatlarının qalıqları "Kodeks Alimentarius" Komissiyasının müəyyən etdiyi tələblərə uyğun olmalıdır.

Bala dair gigyenaa tələbləri "Kodeks Alimentarius" Komissiyasının qəbul etdiyi sənədin - **"Tövsiyə edilən beynəlxalq texniki norma və qaydalar. Yeyinti məhsullarının ümumi gigiyena prinsipləri (CAC/RCP 1 – 1969, Rev.3** tələblərinə uyğun gəlməlidir.

## *Balın markalanması*

Azərbaycan Respublikasında arıçılıq məhsulları istehsalçıları dövriyyəyə daxil etdikləri məhsulları istehsal markaları ilə təchiz etməlidirlər. Daxili bazara çıxarılan və ixrac edilən arıçılıq məhsulları markalanarkən etiketin üzərində Azərbaycan dilində istehlakçılar üçün qanunvericilikdə nəzərdə tutulmuş lazımi məlumatlar əks olunmalıdır.
Balın markalanması üçün aşağıdakı normalar daxil edilir.

**Yeyinti məhsulunun adı**

Standarta uyğun olaraq məhsullar "bal" adlandırılmalıdır. Balın əmələ gəlmə növündən asılı olaraq "çiçəkli" ("nektarlı") və ya "bitki hüceyrə şirəsindən alınan bal" terminləri ilə tamamlana bilər. Əgər hər kimi növün qarışığı olarsa, məhsulun adına "çiçəkli bal və bitki hüceyrə şirəsindən alınan balın qarışığı" sözləri əlavə edilə bilər.

Bal coğrafi və ya topoqrafik rayonun adı ilə göstərilə bilər.

Bal öz bitki mənşəyinin adı ilə göstərilə bilər, əgər bütövlükdə və ya əsasən, məhz bu mənbədən istehsal edilibsə və öz mənşəyinə uyğun orqanoleptik, fiziki-kimyəvi və morfoloji xarakteristikalara malikdirsə.

Əgər, bal özünün bitki mənşəyi ilə adlandırılıbsa, bu mənşəyin ümumi qəbul olunmuş və ya botaniki adı, bilavasitə "bal" sözünün yanında göstərilməlidir.

Əgər, bal öz bitki mənşəyinə və ya coğrafi və topoqrafik rayon adları ilə adlandırılarsa, o zaman onun istehsal olunduğu ölkə də göstərilməlidir.

**Balı ayırma metoduna uyğun adlandırmaq olar:**

- ayrılmış (ekstraksiya olunmuş) bal – bağlanmamış və süfrələrsiz olan şanların sentrifuqalanması ilə alınan bal;
- pres üsulu ilə alınan bal – süfrələrsiz şanların preslənməsi ilə alınan bal;
- drenaj üsulu ilə alınmış bal – bağlanmamış, süfrələrsiz şanlardan drenaj üsulu ilə alınan bal;

**Bal aşağıdakı tiplərə uyğun eyniləşdirilə bilər:**

a) bal – siropabənzər maye və ya kristallaşmış müxtəlif konsistensiyalı kütlə;

b) şan balı – arılar tərəfindən süfrələrsiz, təzə şanlarda saxlanılan və bağlanmış, bütöv şanlarda və ya bu cür şanların ayrı - ayrı seksiyalarında satılan bal;

c) bal şan ilə – tərkibində bir və ya bir necə şan balı hissəcikləri olan bal.

Tozcuqların əsas hissəsinin kənarlaşdırılması məqsədi ilə filtrdən kecirilmiş bal, filtrdən keçirilmiş bal adlandırılmalıdır.

## Arıçılıq məhsullarının standartlaşdırılması və sertifikatlaşdırılması

Azərbaycan Respublikasında arı ailələrinin və istehsal edilən arıçılıq məhsullarının milli standartları qanunvericiliyə uyğun olaraq hazırlanır, müvafiq orqanlarla razılaşdırılır, təsdiq edilir və qeydiyyata alınır. Ölkə daxilində istehsal edilən və idxal olunan arıçılıq məhsulları satışa çıxarılarkən qüvvədə olan normativ sənədlərin tələblərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş qaydada sertifikatlaşdırılmalıdır.

Arıçılıq məhsullarının sertifikatlaşdırılması həmin məhsulların baytarlıq şəhadətnaməsi olduqda aparılır.

**Diqqət!** ***Sertifikatsız arıçılıq məhsullarının satışına yol verilmir!***

Əhalinin sağlamlığının qorunmasında və digər sahələrdə istifadə edilən arıçılıq məhsulları xammalı və onların əsasında hazırlanmış apifitoməhsulların istehsalı, dövriyyəsi və tətbiqi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

İnsanların sağlamlığına və təhlükəsizliyinə, ətraf mühitin mühafizəsinə dair tələblərə uyğunluğutəmin etmək üçün məhsullar sertifikatlaşdırılır. Məhsulların sertifikatlaşdırılması onların sərbəst dövriyyəsinə, məhsulların təkrar sertifikatlaşdırma aparmadan idxal-ixracına şərait yaradır. Azərbaycan Respublikasında məhsulların sertifikatlaşdırılması onların istehsalı, emalı, idxalı və ixracı səviyyəsində aparılır.

Bəzi sertifikatlar hər mal partiyasına, bəzi sertifikatlar isə istehsalata verilir. Ona görə hər mal partiyasına satış, idxal və ixrac edilmək üçün ayrıca, istehsalata isə müəyyən müddət üçün verilir ki, bu müddət ərzində istehsal olunan mallar həmin sertifikat əsasında satıla bilər.

Arı məhsullarının keyfiyyət və təhlükəsizlik göstəricilərinin standartlar və tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanları tərəfindən sertifikatlaşdırılır. Azərbaycan Respublikasına idxal olunan yeyinti məhsullarına uyğunluq sertifikatı həmin məhsulun son yararlılıq müddətinədək verilir.

Gigiyenik sertifikatın verilməsinə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, **uyğunluq sertifikatı**nın verilməsinə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, **baytarlıq şəhadətnamə**sinin verilməsinə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə ixrac edilən yeyinti məhsullarına **keyfiyyət sertifikatı**nın verilməsinə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi məsuldur.

Sertifikatın (şəhadətnamənin) alınmasına görə dövlət rüsumu yalnız bank, poçt, plastik kart, elektron ödəmə sistemləri və ya İnternet vasitəsi ilə ödənilməlidir.

Azərbaycanda yeyinti malları, o cümlədən arıçılıq sənayesini təmsil edən məhsulların ixracı, idxalı və daxili bazarda satışı üçün aşağıdakı sertifikatların alınması tələb olunur:

- **"Baytarlıq şəhadətnaməsi" – heyvanmənşəli məhsullar üçün**
- **"Gigiyenik sertifikat" – bütün məhsullar üçün**
- **"Keyfiyyət sertifikat" – Avropa Birliyinə ixrac olunan yeyinti məhsulları üçün**
- **"Mənşə sertifikatı" – bütün məhsullar üçün**
- **"Uyğunluq sertifikatı" – əksər məhsulları üçün**

Yeyinti məhsullarının ixracı üçün mənşə və keyifyyət sertifikatı tələb olunur. Ancaq bu sertifikatları almaq üçün digər sertifikatların da alınması tələb olunur. Keyfiyyət sertifikatı yalnız Avropa Birliyinə ixrac üçün tələb olunur. Digər sertifikatlar isə digər ölkələrə mal ixracı zamanı malı müşayiət edən sənədlərin siyahısına daxil edilməlidir.

## Baytarlıq şəhadətnaməsinin alınması

Nazirlər Kabinetinin 2007-ci il 25 sentyabr tarixli 142 nömrəli qərarı ilə təsdiq edilmiş "Yeyinti məhsullarına baytarlıq şəhadətnaməsinin verilməsi Qaydası" dövlət baytarlıq nəzarətində olan yeyinti məhsullarına, o cümlədən arı məhullarına baytarlıq şəhadətnaməsinin verilməsini tənzimləyir.

Şəhadətnamə Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq

Nəzarəti Xidməti və onun yerli orqanları tərəfindən verilir. Dövlət baytarlıq nəzarətində olan yeyinti məhsullarına verilən şəhadətnamə həcmindən asılı olmayaraq həmin yükün ölkə ərazisində daşınmasına və ticarətinə görə verilir.

***Şəhadətnamənin verilməsi Qaydası***

Şəhadətnamə almaq üçün hüquqi və ya fiziki şəxslər müvafiq dövlət baytarlıq orqanına ərizə ilə müraciət edirlər.

Ərizədə aşağıdakılar öz əksini tapmalıdır:

*hüquqi şəxslər üçün - hüquqi şəxsin adı və hüquqi ünvanı;*

*fiziki şəxslər üçün - soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənəd haqqında məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvan).*

Ərizə ilə birlikdə aşağıdakı sənədlər təqdim olunmalıdır:

*məhsul barədə məlumat;*

*məhsulun adı və miqdarı (hər növ üzrə);*

*məhsulun mənşəyi barədə məlumat;*

*məhsulun yekun təyinatı və istifadə yeri.*

Şəhadətnamənin alınmasına görə dövlət rüsumu yalnız bank, poçt, plastik kart, elektron ödəmə sistemləri və ya internet vasitəsilə ödənilməlidir.

Şəhadətnamə aşağıdakı hallarda verilir:

- *Tələb olunan sənədləri təqdim edildikdə;*
- *dövlət baytarlıq nəzarətində olan yüklərə baxış aparıldıqdan və ya müvafiq baytarlıq-sanitariya müayinələri həyata keçirildikdən sonra;*
- *baytarlıq nəzarətində olan yeyinti məhsullarına şəhadətnamə verilməsi üzrə dövlət rüsumu ərizəçi tərəfindən ödənildikdə.*

Yeyinti məhsullarına şəhadətnamə almaq üçün təqdim edilən sənədlər şəhadətnamə verən orqan tərəfindən qəbul edilir, qeydə alınır, məhsula baxış keçirdikdən sonra çatışmazlıqlar və ya imtina üçün əsas olmadıqda, şəhadətnamə həmin gün verilir.

Baytarlıq şəhadətnaməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 sentyabr tarixli 142 nömrəli qərarı ilə təsdiq edilmiş "Baytarlıq şəhadətnaməsinin Forması"na uyğun tərtib edilir **(ƏLAVƏ 1)**

və kötüyü qaytanlanmış jurnalda qeyd edilməklə 3 (üç) il müddətində saxlanılır.

Şəhadətnamə Azərbaycan dilində tərtib edilir. Şəhadətnamədə dəyişiklik və düzəlişlərin aparılmasına yol verilmir.

Dövlət baytarlıq nəzarətində olan yeyinti məhsullarına verilmiş şəhadətnamənin sahibi ona verilən şəhadətnamədən yalnız özü istifadə edə bilər. Şəhadətnamə xüsusi blanklarda tərtib edilir və mühafizə olunur. Bu şəhadətnamə ciddi hesabat blankıdır və şəhadətnaməni verən orqanın rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və imza həmin orqanın möhürü ilə təsdiqlənir.

Şəhadətnamə və ya onun surəti müxtəlif xətlə, rənglə və şriftlə yazıldıqda, düzəliş edildikdə, möhürsüz olduqda, yaxud möhür aydın oxunmadıqda, sənədi imzalayan mütəxəssisin imzası, tam vəzifəsi və soyadı, adı, atasının adı qeyd edilmədikdə, sənədin verilmə tarixi və tələb olunan digər məlumatlar göstərilmədikdə etibarsız sayılır.

Sərhəd baytarlıq nəzarəti məntəqələri dövlət baytarlıq nəzarətində olan yüklərə ixracatçı ölkə tərəfindən verilmiş baytarlıq sertifikatını şəhadətnamə ilə əvəz edir və onu baytarlıq nəzarətini həyata keçirən dövlət baytarlıq orqanının səlahiyyətli mütəxəssisinə təqdim etmək üçün yükü müşayiət edən şəxsə verirlər.

Hava, su və dəmiryol nəqliyyatı ilə daşman yüklərə verilən şəhadətnamə eyni nömrədə 2 (iki) nüsxədə yazılır. Onlardan biri yük sahibinə, digəri isə yükü müşayiət edən şəxsə verilir.

Şəhadətnamənin verilməsindən imtina edildikdə, bu barədə ərizəçiyə, imtinanın səbəbləri göstərilməklə, 3 (üç) iş günü müddətində yazılı məlumat verilir.

**Şəhadətnamənin verilməsindən aşağıdakı hallarda imtina edilir:**

- qanunvericilikdə nəzərdə tutulmuş sənədlər təqdim edilmədikdə;
- ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;
- qanunvericiliyə uyğun olaraq, müvafiq dövlət orqanları tərəfindən ərizəçinin fəaliyyətinə xitam verildikdə;
- yeyinti məhsulları təhlükəsizlik və keyfiyyət normalarına uyğun olmadıqda.

Şəhadətnamənin verilməsindən imtina barədə qərardan, qanunvericiliyə uyğun olaraq, aidiyyəti dövlət orqanına və ya məhkəməyə şikayət verilə bilər.

***Hüquqi şəxs ləğv edildikdə, həmin şəxsə verilən müvafiq şəhadətnamə öz hüquqi qüvvəsini itirir. Vəfat etmiş fiziki şəxsin adına verilən şəhadətnamə onun varisləri üçün həmin sənədlərdə göstərilən müddət və şərtlərlə öz qüvvəsini saxlayır.***

Hüquqi şəxs yenidən təşkil edildikdə, onun adı və fiziki şəxsin şəxsiyyət sənədinə dair məlumatlar (seriya, nömrə, kim tərəfindən və nə vaxt verilmişdir, ünvanı) dəyişdikdə, yaxud şəhadətnamə itirildikdə, ərizəçi 10 (on) gün müddətində şəhadətnamənin yenidən rəsmiləşdirilməsi üçün ərizə təqdim etməlidir.

Şəhadətnamənin yenidən rəsmiləşdirildiyi müddətdə ərizəçi öz fəaliyyətini əvvəlki şəhadətnamə əsasında, şəhadətnamə itirildikdə isə müvafiq dövlət orqanlarının verdiyi dublikat əsasında həyata keçirir.

Şəhadətnamə və ya onun dublikatı müvafiq dövlət orqanının rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və imza həmin orqanın möhürü ilə təsdiqlənir.

Şəhadətnamə verən dövlət orqanı verdiyi, qeydə aldığı və ləğv etdiyi şəhadətnamənin dövlət reyestrini aparır.

### *Şəhadətnamənin ləğv edilməsi*

Dövlət baytarlıq nəzarətində olan arı məhsullarına verilən şəhadətnamə aşağıdakı hallarda ləğv edilir:

- *şəhadətnamə sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;*
- *şəhadətnamə sahibi tərəfindən normativ sənədlərin tələblərinə əməl edilmədikdə;*
- *şəhadətnamənin verilməsi üçün təqdim edilən sənədlərdə qeyri-dürüst və təhrif olunmuş məlumat aşkar edildikdə;*
- *yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin*

*həyata keçirilməsi zamanı qanunvericilik aktlarının və normativ sənədlərin tələblərinin pozulması nəticəsində insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa və mühüm təhlükə yaradan və ya mühüm zərər vuran hallar aşkar edildikdə;*

- *ölkə ərazisində epizootik vəziyyət dəyişdikdə;*
- *məhkəmənin müvafiq qərarı olduqda;*
- *hüquqi şəxs ləğv edildikdə;*
- *Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər hallarda.*

Dövlət baytarlıq nəzarətində olan yeyinti məhsullarına şəhadətnamə verən dövlət orqanı şəhadətnamənin ləğv edilməsi haqqında qərar qəbul etdiyi andan 3 (üç) gün müddətində yazılı surətdə şəhadətnamənin sahibinə məlumat göndərir.

Dövlət baytarlıq nəzarətində olan yeyinti məhsullarına şəhadətnamə verən dövlət orqanı şəhadətnamənin ləğv olunması barədə kütləvi informasiya vasitələri ilə məlumat yayır.

**Gigiyenik sertifikatın alınması**

Yeyinti məhsullarına sertifikat almaq üçün hüquqi və ya fiziki şəxslər müvafiq sertifikat verən orqana ərizə ilə müraciət edirlər.

Ərizədə aşağıdakılar öz əksini tapmalıdır:

hüquqi şəxslər üçün - hüquqi şəxsin adı, hüquqi ünvanı;

fiziki şəxslər üçün - soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən vəsiqə haqqında məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvan).

Ərizə ilə birlikdə qanunvericilikdə nəzərdə tutulduğu halda, xüsusi razılığın surəti təqdim olunmalıdır.

Bundan başqa yeyinti məhsullarına sertifikat almaq üçün ərizəçi aşağıdakıları təqdim etməlidir:

- *sanitar-epidemioloji xidmətin mütəxəssisləri tərəfindən götürülmüş məhsulun nümunəsini;*
- *istehsal olunan yeyinti məhsulları üçün əlavə olaraq, istehsalçı müəssisənin sanitariya norma və qaydalarının tələblərinə uyğunluğu haqqında ərazi dövlət sanitariya nəzarəti orqanının müayinə aktını;*

idxal olunan yeyinti məhsulları üçün əlavə olaraq:

- *müqavilənin surətini;*
- *istehsalçı ölkənin səlahiyyətli orqanları tərəfindən verilmiş yeyinti məhsulunun mənşəyini və təhlükəsizliyini xarakterizə edən müvafiq sertifikatın notariat qaydasında təsdiq edilmiş tərcüməsini.*

Yeyinti məhsullarına sertifikat, bir qayda olaraq, həmin məhsullar dövlət gigiyena qeydiyyatına alındıqdan və dövlət reyestrinə daxil edildikdən sonra verilir.

Məhsulun gigiyenik qiymətləndirilməsi dövlət sanitariya nəzarəti orqanlarının müvafiq qaydada akkreditasiya edilmiş laboratoriyalarında aparılmış ekspertizanın nəticələrinə əsasən həyata keçirilir.

Azərbaycan Respublikasında istehsal edilən, respublikaya gətirilən yeyinti məhsullarının kimyəvi, bioloji, toksikoloji və radioloji göstəricilərə görə ekspertizasının aparılması ərizəçinin vəsaiti hesabına həyata keçirilir.

Yeyinti məhsullarına sertifikat almaq üçün təqdim edilən sənədlər sertifikat verən orqan tərəfindən qəbul edilir, qeydə alınır, baxılır, çatışmazlıqlar və ya imtina üçün əsas olmadıqda, qanunvericiliyə və normativ sənədlərə uyğun olaraq, bütün zəruri tədbirlər görüldükdən sonra sertifikat verilməsi haqqında 10 (on) iş günü müddətində qərar qəbul edilir.

Təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, bu barədə ərizəçiyə 1 (bir) gündən gec olmayaraq, yazılı məlumat verilir. Məlumatda sənədlərdəki çatışmazlıqlar konkret göstərilməlidir. Çatışmazlıqlar aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim edildikdən sonra onlara 3 (üç) iş günü müddətində baxılır və müvafiq qərar qəbul edilir.

Yeyinti məhsullarına verilən sertifikat xüsusi blanklarda tərtib edilir və mühafizə olunur. Bu sertifikat ciddi hesabat blankıdır və sertifikatı verən orqanın rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və imza həmin orqanın möhürü ilə təsdiqlənir. (**ƏLAVƏ 2** və **3**)

Sertifikat Azərbaycan dilində və qarşılıqlı razılaşma ilə digər dillərdə tərtib edilə bilər.

Ərizəçiyə sertifikatın verilməsindən imtina edildikdə, bu barədə ona imtinanın səbəbləri göstərilməklə, 3 (üç) iş günü müddətində yazılı məlumat verilir.

**Sertifikatın verilməsindən aşağıdakı hallarda imtina edilir:**

- qanunvericilikdə nəzərdə tutulmuş sənədlər təqdim edilmədikdə;
- ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;
- qanunvericiliyə uyğun olaraq, müvafiq dövlət orqanları tərəfindən ərizəçinin fəaliyyətinə xitam verildikdə;
- müxtəlif ərzaq növləri eyni ad altında və ya eyni yeyinti məhsulları bir neçə ad altında olduqda;
- yeyinti məhsulları təhlükəsizlik və keyfiyyət normalarına uyğun olmadıqda.

Hüquqi şəxs ləğv edildikdə, həmin şəxsə verilən müvafiq sertifikat öz hüquqi qüvvəsini itirir. Vəfat etmiş fiziki şəxsin adına verilən sertifikat onun varisləri üçün həmin sənədlərdə göstərilən müddət və şərtlərlə öz qüvvəsini saxlayır.

Sertifikat ölkə ərazisində istehsal olunan yeyinti məhsullarına 1 (bir) il müddətinə, xarici dövlətlərdən ölkə ərazisinə idxal olunan yeyinti məhsullarına (məhsul partiyasına) isə 6 (altı) ay müddətinə verilir.

**Keyfiyyət sertifikatının alınması**

Keyfiyyət sertifikatı Avropa Birliyi ilə əldə edilmiş razılığa əsasən Birliyə ixrac olunan yeyinti məhsullarına verilir. Sertifikatın alınması üçün İstehlak Bazarına Nəzarət üzrə dövlət xidmətinə ərizə ilə müraciət olunmalıdır. Ərizədə məhsulun ixrac tarixi, təyinat ölkəsi, mənşə ölkəsi, ixrac edilən məhsulların istehsal və emal edildiyi müəssisənin təsdiqedici kod nömrəsi, gömrük çıxış məntəqəsi, məhsulun adı, miqdarı və s. məlumatlar göstərilməldir.

Keyfiyyət sertifikatı ixrac olunan hər mal partiyasına verilir. Sertifikat əldə etmək üçün təqdim edilmiş ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:

- *mənşə sənədinin əsli*
- *uyğunluq sertifikatı*
- *gigiyenik sertifikatı*
- *alqı-satqı müqaviləsi (kontraktı)*
- *ixrac olunan məhsulun növündən asılı olaraq mövcud qanunvericiliyə uyğun fitosanitar sertifikatı, baytarlıq şəhadətnaməsi, ovlanmış heyvanlara müvafiq orqanın icazəsi və ovun qadağan olunmamış müd-*

*dətdə ovlanması və müəssisəyə daxil olduğu haqda sənəd, Avropa Komissiyasının müvafiq direktivləri və şura reqlamentləri ilə müəyyən edilmiş digər sənədlər*

- *ixrac ediləcək məhsula dair hesab-faktura (invoys)*

Sənədlər təqdim olunduqdan sonra Xidmət əməkdaşları tərəfindən istehsal edilmiş və qablaşdırılmış məhsullardan nümunə götürülür və laboratoriyadan ekspertizadan keçirilir. Ekspertizanın nəticəsi haqqında isə rəy tərtib olunur.

Bundan sonra Xidmətin Avropa Birliyinin tələbinə əsasən ixracatçı müəssisənin istehsal prosesinin HACCP planına uyğun olması üzrə müşa-

**Keyfiyyət sertifikatı**

**İcazəni verən icra orqanın adı:** İqtisadiyyat Nazirliyi

**İcazənin verilməsinə görə ödənişin məbləği**

- Keyfiyyət sertifikatının verilməsinə görə dövlət rüsmunun məbləği - 20 manat;

**İcazənin verilməsinə tələb olunan günlərinin sayı**

Müvafiq elektron xidmətin icra müddəti – 3 (üç) gün

*Laborator müayinələrin aparılması üçün məhsulun növündən asılı olaraq müddət fərqli ola bilər.*

**İcazənin güvvədə olduğu müddət**

Məhsulun növünə görə dəyişir. Bəzi məhsullarda məhsulun normativ sənədlərlə müəyyən edilmiş saxlama müddətində güvvədədir.

**İcazənin verilməsi üçün tələb olunan sənədlərin siyahısı**

- mənşə sertifikatının surəti;
- uyğunluq sertifikatının surəti;
- gigiyenik sertifikatın surəti;
- alqı-satqı müqaviləsi;
- ixrac olunan məhsulun növündən asılı olaraq mövcud qanunvericiliyə uyğun fitosanitar sertifikatı, baytarlıq şəhadətnaməsi;
- ixrac ediləcək məhsula dair hesab-faktura (invoys);
- məhsul partiyasına dair nümunənin laborator müayinələrinin nəticələri barədə müsbət rəyi;
- keyfiyyət sertifikatının verilməsinə görə dövlət rüsumunun ödənilməsi barədə qəbzin surəti.

hidələr aparılır. Nəticələr müsbət olduqda verilən rəylər və təqdim olunan sənədlər əsasında dəyərləndirmə aparılır və keyfiyyət sertifikat (**ƏLAVƏ 7**) verilir. Sertifikat 3 nüsxədə hazırlanır, biri səlahiyyətli orqanda qalır, 1-i malı müşaiyət edən sənədərə daxil edilir, bir isə müəssisəyə verilir. Məhsul ixrac olunduqdan sonra 3 gün ərzində doldurulmuş yük gömrük bəyannaməsinin sürəti ərizəçi tərəfindən Xidmətə təqdim olunmalıdır.

**Mənşə sertifikatının alınması**

Mənşə sertifikatı Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən hüquqi və fiziki şəxslərin müraciəti əsasında verilir.

İxrac ölkəsindən asılı olaraq sifarişçilərə aşağıda verilmiş üç formada: "CT-1", "A" və "Ümumi" formalı mənşə sertifikatları təsdiq edilir.

- *"CT-1" formalı mənşə sertifikatı malın MDB ölkələrinə ixracı zamanı;*
- *"A" formalı mənşə sertifikatı malın Avropa Birliyi ölkələrinə (Ümumiləşdirilmiş Preferensiyalar Sisteminə daxil olan ölkələrə) ixracı zamanı;*
- *"Ümumi" formalı mənşə sertifikatı malın Avropa Birliyinin və MDB ölkələrinin üzvü olmayan digər ölkələrə ixracı zamanı tərtib olunur.*

Malın mənşə ölkəsi müvafiq ekspertizaların nəticələri əsasında müəyyən olunur. Malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertizalar Dövlət Xidmətinin nəzdində "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC (www.ekspertiza.az) tərəfindən aparılır. Aparılan ekspertiza- ların nəticələri əsasında aşağıda verilmiş formada "Ekspertiza aktı" tərtib olunur.

Malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertizalar Bakı şəhəri üzrə "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC və 6 regional bölmə tərəfindən aparılır:

1. **Gəncə-Qazax regional bölməsi**
2. **Quba-Xaçmaz regional bölməsi**
3. **Şəki-Zaqatala regional bölməsi**
4. **Lənkəran regional bölməsi**
5. **Aran regional bölməsi**
6. **Abşeron regional bölməsi**

**İcazəni verən icra orqanın adı:** İqtisadiyyat Nazirliyi

**İcazənin verilməsinə görə ödənişin məbləği:**
- Mənşə sertifikatının verilməsinə görə dövlət rüsmunun məbləği - 20 manat;
- malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertiza xidmətlərinə görə xidmət haqqı - ixrac olunan məhsulun miqdarından (çəkisindən) və ya məbləğindən asılı olaraq dəyişir.

**İcazənin verilməsinə tələb olunan günlərinin sayı:** 3 (üç) gün.

**İcazənin güvvədə olduğu müddət:** 1 (bir) il.

**İcazənin verilməsi üçün tələb olunan sənədlərin siyahısı**
- sifarişçi hüquqi şəxs olduqda dövlət qeydiyyatı haqqında şəhadətnamənin və hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın surəti;
- sifarişçi hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin surəti;
- sifarişçi ilə alıcı arasında bağlanmış müqavilənin surəti (olduğu halda);
- qaimə-fakturanın (invoysun) surəti;
- ixrac olunan məhsulun ilkin xammalının, yarımfabrikatın yaxud məhsulların hazırlanmasında iştirak edən digər materialların alınmasını təsdiq edən müqavilə və ya başqa təsdiqedici sənədlərin surəti;
- ixrac olunan məhsulun ilkin xammalı, yarımfabrikatı, yaxud məhsulların hazırlanmasında iştirak edən digər materialları xarici ölkə mənşəli olduğu təqdirdə, emal nəticəsində malın xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası (XİF ƏN) üzrə mövqeyində ilk dörd rəqəmdən ən azı birinin səviyyəsində dəyişmənin olması və ya advalor pay qaydası tətbiq olunduğu hallarda istifadə olunmuş materialların dəyərinin göndərilən malın qiymətinin faizlə müəyyən edilmiş həddə çatması ilə əlaqədar sənədlər;
- mənşə sertifikatının verilməsinə görə dövlət rüsumunun ödənilməsi haqqında qəbzin surəti.

Ekspertiza aktı yüklənməyə hazır olan mal partiyası üçün tərtib edilir. Ekspertiza aktı iki nüsxədə tərtib edilir, bir nüsxəsi Mərkəzdə qalır, digər nüsxəsi isə Malın mənşə ölkəsini təsdiq edən sertifikatın tərtib edilməsi üçün Dövlət Xidmətinə təqdim olunur.

Mənşə sertifikatının verilməsinə görə dövlət rüsumu ödənilir. Dövlət rüsumunun məbləği 20 manatdır.

Malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertiza xidmətlərinə görə sifarişçilərdən Azərbaycan Respublikasının Tarif (Qiymət) Şurası tərəfindən müəyyən olunmuş məbləğdə xidmət haqqı alınır.

## Uyğunluq sertifikatının alınması

Yeyinti məhsullarının sertifikatlaşdırılması üçün sifarişçi məhsulun sertifikatlaşdırılması üzrə müvafiq orqana sifariş verir.

**Sifarişdə aşağıdakılar öz əksini tapmalıdır:**

hüquqi şəxslər üçün - hüquqi şəxsin adı və hüquqi ünvanı;

fiziki şəxslər üçün - soyadı, adı, atasının adı, şəxsiyyəti təsdiq edən sənəd haqqında məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir).

Sifarişlə birlikdə aşağıdakı sənədlər təqdim olunmalıdır:

<u>a) seriya şəklində istehsal olunan məhsullar üçün:</u>

- normativ sənədlər (zərurət olduqda);
- keyfiyyəti idarəetmə sisteminin sertifikatının surəti (olduqda);
- istehsalçının apardığı sınaqların protokolları;
- gigiyenik sertifikatın surəti;
- heyvan mənşəli məhsullar üçün baytarlıq şəhadətnaməsinin surəti;
- emal olunmamış bitki mənşəli məhsullar üçün fitosanitar sertifikatının surəti;
- qanunvericilikdə nəzərdə tutulduğu halda xüsusi razılığın surəti;

<u>b) partiya şəklində istehsal olunan məhsullar üçün:</u>

- müqavilənin (kontraktın) surəti;
- sınaq protokolları (olduqda);
- gigiyenik sertifikatın surəti;

- istehsalçının məhsula verdiyi keyfiyyət sertifikatının surəti (olduqda);
- heyvan mənşəli məhsullar üçün baytarlıq şəhadətnaməsinin surəti;
- emal olunmamış bitki mənşəli məhsullar üçün fitosanitar sertifikatının surəti.

Sertifikatlaşdırma üzrə bir neçə akkreditə edilmiş orqan olduqda, sifarişçi sifarişi öz seçiminə görə həmin orqanlardan hər hansı birinə göndərə bilər, belə orqan olmadıqda isə sifariş Sertifikatlaşdırma üzrə Milli Orqana göndərilir və sifariş daxil olduğu gündən qeydə alınır.

Təqdim edilmiş sənədlərin təhlili müsbət nəticələndikdə, sertifikatlaşdırma üzrə orqan 10 (on) gün müddətində məhsulun sertifikatlaşdırılmasının əsas şərtlərini əks etdirən qərar qəbul edir. Əks halda sifarişə hansı sənədlərin əlavə edilməsi və ya hansı düzəlişlərin edilməsi barədə sifarişçiyə 10 (on) gün müddətində məlumat verilir.

Sertifikatlaşdırma sınaqlarının aparılması üçün məhsul nümunələrini konkret məhsul növünün sertifikatlaşdırılması üzrə akkreditə olunmuş sertifikatlaşdırma üzrə orqan, belə orqan olmadıqda isə sifarişçinin iştirakı ilə Sertifikatlaşdırma üzrə Milli Orqanın nümayəndəsi seçir. Nümunələr sifarişçi tərəfindən təqdim edilmiş məhsuldan seçilir.

Məhsulun üzərində onun istehsal edildiyi tarix, saxlanma və ya yararlılıq müddəti göstərilmədikdə, məhsulun yararlılıq müddəti bitdikdə, nümunələr seçilmir, məhsul sertifikatlaşdırılmaya qəbul edilmir və bu barədə sifarişçiyə yazılı məlumat verilir.

Sertifikatlaşdırma sınaqlarının nəticələri bir göstərici üzrə mənfi olduqda, sınaqlar dayandırılır və bu barədə sifarişçiyə sertifikatın verilməsindən imtinanın səbəblərini göstərməklə, sifarişin daxil olduğu tarixdən 15 (on beş) gün müddətində yazılı məlumat verilir, nəticələr müsbət olduqda isə sifarişçiyə uyğunluq sertifikatı verilir. Sınaqların nəticəsindən asılı olmayaraq, sınaq protokolu sertifikatlaşdırma üzrə orqana və sifarişçiyə təqdim edilir.

Sertifikatın surətinin bir nüsxəsi sertifikatlaşdırma üzrə digər sənədlərlə birlikdə sertifikatlaşdırmanı aparan orqanda saxlanılır. Sertifikatın

surətinin ikinci nüsxəsi sertifikatın verildiyi gündən sonra 5 (beş) gün müddətində Sertifikatlaşdırma üzrə Milli Orqana göndərilir.

Uyğunluq sertifikatı sifarişin daxil olduğu tarixdən bir ay müddətində sifarişçiyə verilir və Sertifikatlaşdırma üzrə Milli Orqan tərəfindən dövlət reyestrində qeydə alınır.

Məhsulun sertifikatlaşdırılması üzrə xidmətlərin xərci, nəticəsindən asılı olmayaraq, Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi məbləğdə sifarişçi tərəfindən ödənilir. **(ƏLAVƏ 7)**

Uyğunluq sertifikatı xüsusi blanklarda tərtib edilir və mühafizə olunur. Bu sertifikat ciddi hesabat blankıdır və sertifikatlaşdırma üzrə orqanın rəhbəri və ya onun həvalə etdiyi vəzifəli şəxs tərəfindən imzalanır və imza həmin orqanın möhürü ilə təsdiqlənir. Sertifikat Azərbaycan dilində tərtib edilir. İxrac olunan məhsullar üçün isə qarşılıqlı razılaşma ilə digər dillərdə tərtib edilə bilər. **(ƏLAVƏ 4 və 5)**

Attestasiya olunmuş istehsalatda uyğunluq sertifikatının qüvvədə olma müddəti iki il, attestasiya olunmamış istehsalatda isə bir ildir. Məhsul partiyasına verilən uyğunluq sertifikatının qüvvədə olma müddəti hər konkret halda məhsulun saxlanma şəraiti, yararlılıq müddəti nəzərə alınmaqla, sertifikatlaşdırmanı aparan orqan tərəfindən, lakin bir ildən artıq olmayaraq müəyyən edilir.

**Xarici uyğunluq sertifikatlarının tanınması.** Azərbaycan Respublikasında satılan məhsulun başqa ölkələr tərəfindən verilmiş uyğunluq sertifikatı varsa, bu halda həmin sertifikatlar Sertifikatlaşdırma üzrə Milli Orqan tərəfindən qəbul edilir. Bunun üçün xarici uyğunluq sertifikatının tanınması məqsədilə sifariş edilir. Sertifikatlaşdırma üzrə orqan sənədi təhlil edir, məhsulun eyniləşdirilməsi və orqanoleptik göstəricilərinə nəzarət edir. Xarici sertifikatın tanınmasının mümkünlüyü və ya tanınmadan imtina barədə sifarişin daxil olduğu tarixdən 5 gün müddətində qərar qəbul edir. Sonda xarici sertifikat əsasında Azərbaycan Respublikasının uyğunluq sertifikatını tərtib edir və onu qeydiyyata alır. Xarici dildə olan bütün sənədlər Azərbaycan dilinə tərcümə edilməlidir.

MDB iştirakçısı olan dövlətlərin uyğunluq sertifikatlarının tanınması PMQ 36-2001-də müəyyən edilmiş qaydada aparılır.

Xarici uyğunluq sertifikatlarının tanınmasını aparan orqan məhsulun əlavə sınaqlarının aparılması və ya istehsalatın sabitliyinin yoxlanılması barədə qərar qəbul edə bilər.

Yeyinti məhsullarına verilən uyğunluq sertifikat yalnız aşağıdakı hallarda ləğv edilə bilər:

- sertifikat sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;
- sertifikat sahibi tərəfindən normativ sənədlərin tələblərinə əməl edilmədikdə;
- yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi zamanı qanunvericilik aktlarının və normativ sənədlərin tələblərinin pozulması nəticəsində insanların həyatı, sağlamlığı və əmlakına təhlükə törədə biləcək hallar aşkar edildikdə;
- məhkəmənin müvafiq qərarı olduqda;
- hüquqi şəxs ləğv edildikdə;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan digər hallarda.

Yeyinti məhsullarına sertifikat verən orqan sertifikatın ləğv edilməsi haqqında qərar qəbul etdiyi andan 3 (üç) gün müddətində yazılı surətdə sertifikat sahibinə məlumat göndərir.

## Arı məhsullarının qablaşdırılması və etiketləşdirilməsi

Qənnadı məmulatlarının qablaşdırılması və etiketləşdirilməsi onların keyfiyyətinin və qidalılıq dəyərinin yararlılıq müddətində təhlükəsiz saxlanmasını və istifadəsini təmin etməlidir.

İstehsalçılar istehsal etdikləri məhsulları qanunvericiliyə müvafiq normativ sənədlərə və ticarət qaydalarına uyğun olaraq qablaşdırmalı və etiketləşdirməlidirlər. Etiketdə məhsulun adı, növü və tərkibi, istifadə sahəsi və qaydaları, istehsal tarixi və yararlılıq müddəti, saxlanma şərtləri, istehsalçının adı, ünvanı və normativ sənədlərdə tələb olunan digər məlumatlar əksini tapmalıdır. (***"Yeyinti məhsulları haqqında" Qanun, Maddə 11***)

Qida məhsullarını daşıyan avtonəqliyyat vasitəsinin sanitariya qayda və normalarına uyğunluğuna nəzarət məqsədilə Səhiyyə Nazirliyindən "Qida məhsullarının daşınmasına icazə verən sanitariya pasportu"nun alınması tələb olunur. Sahibkar bu Pasportu e-gov.az elektron portalı vasitəsilə elektron qaydada ala bilər (**ƏLAVƏ 10**)

**Qida məhsullarının daşınmasına icazə verən sanitariya pasportu**

**Məqsəd:** Qida məhsulları daşıyan avtonəqliyyat vasitəsinin sanitariya qayda və normalarına uyğunluğuna nəzarət.

**İcazəni verən icra orqanın adı:** Səhiyyə Nazirliyi

**İcazənin verilməsinə görə ödənişin məbləği:** 3 AZN.

**İcazə üçün tələb olunan günlərinin sayı:** 5 gün.

**Qüvvədə olduğu müddət:** 1 il.

**Tələb olunan sənədlərin siyahısı:**
1. Avtonəqliyyat vasitəsinin sahibinin müraciəti
2. Avtonəqliyyat vasitəsinin texniki pasportunun surəti.

Azərbaycan Respublikasının ərazisində istehsal edilən, habelə ixrac edilən malların üzərindəki etiketlər və digər yazılar müvafiq xarici dillərlə yanaşı, dövlət dilində də olmalıdır. Azərbaycan Respublikasına idxal edilən

yeyinti məhsullarının üzərindəki etiketlər və adlar, onlardan istifadə qaydaları barədə izahat vərəqələri başqa dillərlə yanaşı, Azərbaycan dilinə tərcüməsi ilə müşayiət olunmalıdır.

Müvafiq qaydada qablaşdırılmış və etiketləşdirilmiş yeyinti məhsullarına əmtəə nişanları və ştrixli kodlar vurula bilər.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin **icazəsi olmadan**, şirniyyat məhsullarına **"müalicəvi"**, **"pəhriz"** və onlara bərabər tutulan adların verilməsinə və reklam xarakterli digər məlumatların etiketdə yerləşdirilməsinə yol verilmir.

**Yeyinti məhsulları üzərində "müalicəvi", "pəhriz" və onlara bərabər tutulan adların verilməsi və reklam xarakterli digər məlumatların etiketdə yerləşdirilməsinə icazə məktubu**

**Məqsəd:**
Məhsullara müalicəvi və onlara bərabər tutulan adların verilməsinin qanunvericiliyə uyğunluğu.

**İcazəni verən icra orqanın adı**: Səhiyyə Nazirliyi

**İcazənin verilməsinə görə ödənişin məbləği**: Ödənişsiz.

**İcazənin verilməsinə tələb olunan günlərinin sayı**: 15 gün.

**İcazənin güvvədə olduğu müddət**:
Məhsulun istehsalına dair normativ sənədin qüvvədə olma müddətinə uyğun.

**Tələb olunan sənədlərin siyahısı**:
Məhsulun istehsalına dair normativ sənəd (AZS, texniki şərtlər).

Sahibkar istehsal etdiyi yeyinti məhsullarına, o cümlədən qənnadı məmulatlarına **"müalicəvi"**, **"pəhriz"** və onlara bərabər tutulan adların verilməsinə və reklam xarakterli digər məlumatların etiketdə yerləşdirilməsi üçün icazə məktubunu e-gov.az elektron portalı vasitəsilə elektron qayda ala bilər. **(ƏLAVƏ 11)**

## İxrac edilən arı məhsullarının baytarlıq (baytarlıq-sanitariya) vəziyyətinin yoxlanılması, onların ölkə ərazisindən çıxarılması

Arı məhsullarının ölkə ərazisindən aparılmasına yalnız dövlət sərhədinin buraxılış məntəqələri olan yerlərdə yol verilir. «**Baytarlıq haqqında**» Azərbaycan Respublikası Qanununun 14.5-ci maddəsinə əsasən, insanların qidalanması üçün arı məhsulları və digər heyvan mənşəli məhsulların ixracına o halda yol verilir ki, ixrac edən ölkənin dövlət baytarlıq orqanı həmin məhsulların insanların istifadəsi üçün yararlı olduğunu təsdiq etsin və bu məhsullara baytarlıq sahəsində müvafiq beynəlxalq təşkilatın tövsiyə etdiyi nümunələrə uyğun tərtib edilmiş beynəlxalq baytarlıq sertifikatları versin.

Dövlət baytarlıq nəzarətində olan yüklərin ixracı Dövlət Baytarlıq Nəzarəti Xidməti və onun yerli qurumları tərəfindən həmin ölkələrdə epizootik vəziyyət, heyvan xəstəlikləri törədicilərinin yayılmasını istisna edən baytarlıq (baytarlıq-sanitariya) qaydaları barədə əvvəlcədən məlumatlar almaqla həyata keçirilir.

Arı məhsulları və digər heyvan mənşəli məhsulların ixracına, ölkə ərazisində daşınmasına baytarlıq sənədlərinin (sertifikat, şəhadətnamə, arayış) verilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş hallarda və məbləğdə dövlət rüsumu və ya haqq tutulur.

Azərbaycan Respublikasından ixrac olunan arı məhsularının baytarlıq sahəsi üzrə beynəlxalq standartların tələblərinə uyğun olmasını təmin etmək məqsədi ilə belə yüklərin baytarlıq sertifikatlaşdırılması aparılır. Baytarlıq sertifikatları və ya onların elektron əvəzediciləri Beynəlxalq Epizootik Büronun tövsiyələri nəzərə alınmaqla tərtib edilir və Dövlət Baytarlıq Nəzarəti Xidmətinin yerli qurumları tərəfindən verilir.

Baytarlıq sertifikatının alınması üçün fiziki və ya hüquqi şəxs arı məhsullarını xarici ölkəyə yola salmazdan ən azı 5 (beş) gün əvvəl dövlət baytarlıq orqanına ərizə ilə müraciət etməlidir (fiziki şəxslər adını, soyadını, atasınm adını, qeydiyyatda olduğu ünvanı, hüquqi şəxslər isə dövlət qeydiyyatı haqqında məlumatları qeyd etməlidirlər). Təqdim olunan ərizə dövlət baytarlıq orqanı tərəfindən qəbul edilir və qeydə alınır.

**Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:**

- sertifikatın verilməsi üçün qanunvericiliklə müəyyən edilmiş

məbləğdə dövlət rüsumunun ödənilməsi barədə sənəd;
- sertifikatın verilməsi üçün nəzərdə tutulan yüklərin təsviri:
    - ixrac olunan arı məhsullarının adı, miqdarı (sayı) və mənşəyi (damazlıq heyvanlar ixrac edilərkən müvafiq dövlət orqanının rəyi əlavə edilir);
    - idxalçı ölkənin adı və yükün daxilolma ünvanı;
    - heyvanların, heyvan mənşəli məhsulların və xammalın yüklənmə yeri və tarixi;
- idxal edən ölkənin baytarlıq-sanitariya tələbləri.

Dövlət baytarlıq orqanları tərəfindən ixrac olunan arı məhsullarına onların xüsusiyyətləri, ərazinin epizootik vəziyyəti nəzərə alınaraq, baytarlıq (baytarlıq-sanitariya) tələblərinə uyğun baxış keçirilir, müayinələr aparılır və imtina üçün əsaslar olmadıqda yükə 3 (üç) iş günü müddəti ərzində yükün növündən asılı olaraq baytarlıq sertifikatı verilir **(ƏLAVƏ 9).**

Baytarlıq sertifikatı eyni nömrədə 2 (iki) nüsxədə hazırlanır, onun bir nüsxəsi ərizəçiyə verilir, digər nüsxəsi isə sənədi vermiş dövlət baytarlıq orqanında saxlanılır. Baytarlıq sertifikatı verildiyi tarixdən 10 (on) gün müddətində istifadə edilməklə, həmin yükün çatdırılacağı təyinat yerinədək qüvvədədir. Sertifikat xüsusi blanklarda tərtib edilir və mühafizə olunur. Baytarlıq sertifikatı ciddi hesabat blankıdır və onu verən dövlət baytarlıq orqanının rəhbəri tərəfindən imzalanır və möhürlə təsdiqlənir.

Baytarlıq sertifikatının düzgün tərtib olunmasına və qanunvericiliyin tələblərinə uyğun gəlməsinə belə sənədi vermiş dövlət baytarlıq orqanının rəhbəri bilavasitə məsuliyyət daşıyır.

Sertifikat hər hansı səbəbdən itirildikdə, onun qanunvericiliyə uyğun olaraq dublikatı verilir. Sertifikat müxtəlif xətlə, rənglə və şriftlə yazıldıqda, düzəliş edildikdə, möhürsüz olduqda, yaxud möhür aydın oxunmadıqda, sənədi imzalayan şəxsin imzası, vəzifəsi və soyadı, adı qeyd edilmədikdə, sənədin verilmə tarixi və tələb olunan digər məlumatlar göstərilmədikdə etibarsız sayılır.

Baytarlıq sertifikatının verilməsinə aşağıdakı hallarda imtina edilir:
- Qanunvericilikdə nəzərdə tutulmuş sənədlər təqdim olunmadıqda;
- ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar olduqda;

- baytarlıq baxışı zamanı heyvanların və əhalinin sağlamlığı üçün təhlükə törədən xüsusi təhlükəli xəstəliklər aşkar edildikdə;
- göndərilən yüklər baytarlıq (baytarlıq-sanitariya) tələblərinə cavab vermədikdə;
- qanunvericiliklə müəyyən edilmiş digər hallarda.

Baytarlıq sertifikatının verilməsindən imtina edildikdə, bu barədə ərizəçiyə imtinanın səbəbləri göstərilməklə, 3 (üç) iş günü müddətində yazılı məlumat verilir. Baytarlıq sertifikatının verilməsindən imtina barədə qərardan qanunvericiliyə uyğun olaraq aidiyyəti dövlət orqanına və ya məhkəməyə şikayət verilə bilər.

**Baytarlıq sertifikatı aşağıdakı hallarda ləğv edilir:**

- sertifikatın sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;
- sertifikatın sahibi tərəfindən baytarlıq (baytarlıq-sanitariya) tələblərinə əməl edilmədikdə;
- məhkəmənin müvafiq qərarı olduqda;
- hüquqi şəxs ləğv edildikdə və ya fiziki şəxs öldükdə;
- qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

Baytarlıq sertifikatını verən dövlət baytarlıq orqanı sertifikatın ləğv edilməsi haqqında qərar qəbul etdiyi andan 3 (üç) iş günü müddətində yazılı surətdə sertifikatın sahibinə məlumat göndərir.

Dövlət baytarlıq nəzarətində olan yüklərə baytarlıq sertifikatını verən dövlət baytarlıq orqanı həmin sertifikatın ləğv olunması barədə kütləvi informasiya vasitələri ilə məlumat yayır.

Arı məhsulları dövlət sərhədindən keçərkən, onlara verilmiş baytarlıq sertifikatı dövlət sərhədinin buraxılış məntəqəsinə təqdim edilir. Dövlət sərhədinin buraxılış məntəqəsi tərəfindən təqdim edilmiş sertifikatda müvafiq qeydlər aparılmaqla, həmin yüklər açılmadan, bölünmədən, digər yüklərə qarışdırılmadan və yenidən qablaşdırılmadan müəyyən olunmuş qaydada yola salınır.

Yükdə və ya onun daşındığı nəqliyyat vasitələrində baytarlıq (baytarlıq-sanitariya) qaydalarının pozulması hallan aşkar olunduqda, gömrük orqanlarının bildirişinə əsasən dövlət baytarlıq müfəttişləri tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görülür.

## Arı məhsullarının satışı

Azərbaycan Respublikasında keyfiyyəti və təhlükəsizliyi standartlara və tələblərə cavab verən, dövlət gigiyena qeydiyyatına alınmış, mənşəyi və keyfiyyəti barədə sənədləri olan yeyinti məhsulları satışa çıxarıla bilər.

Yeyinti məhsullarının topdan və pərakəndə satışı bu məqsədlər üçün müvafiq qaydada ayrılmış, standartlara və tələblərə uyğun olaraq hazırlanmış xüsusi yerlərdə həyata keçirilir.

Yeyinti məhsullarının müvafiq qaydada ayrılmış, standartlara və tələblərə cavab verməyən yerlərdə satışına, habelə fiziki şəxslərin qanunvericiliklə müəyyən edilmiş icazə və sağlamlıq sənədləri olmadan yeyinti məhsulları sahəsində fəaliyyətinə yol verilmir.

Qablaşdırma və bükmə materiallarının uyğunluq və gigiyenik sertifikatları olduqda onlardan istifadə edilməsinə icazə verilir.

Arıçılıq məhsullarına olan tələbatı müəyyən etmək, onların reklamını və satışını keçirmək üçün sərgilər, yarmarka-satış və müasir informasiya texnologiyaları olan internet-saytlardan istifadə olunur. Yarmarkaların və sərgilərin təşkili Kənd Təsərrüfatı Nazirliyi tərəfindən hər il həyata keçirilir və bu tədbirlərdə arıçılıq məhsulları ilə yanaşı arıçılıqda istifadə edilən avadanlıq, inventar və qurğular da nümayiş etdirilir və onların satışı təşkil olunur.

Arıçılıq məhsulları qanunvericilikdə nəzərdə tutulmuş qaydada sərbəst mübadilə oluna, alına və ya bir şəxsdən başqasına keçə bilər. Arıçılıq məhsullarının satışı xüsusi mağazalarda, mağazaların ayrıca bölmələrində və ya onların keyfiyyətinə və digər xüsusiyyətlərinə zərər gətirməyən, müvafiq normativ texniki sənədlərin tələblərinə cavab verən yerlərdə təşkil olunur.

Satışa bal arılarının bitkilərin nektarından və şirəsindən (gəzəngidən) istehsal etdiyi bal çıxarılır. Süni yolla və ya başqa mallardan alınmış məhsulun bal kimi satışına və digər məqsədlər üçün istifadəsinə yol verilmir və o, qüvvədə olan standartların, digər normativ sənədlərin tələblərinə uyğun olmayan mal hesab olunur. Belə məhsulu təbii bal kimi dövriyyəyə daxil etməklə istehlakçıların hüquqlarının pozulmasında təqsirli bilinən şəxslər qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

***DİQQƏT! Ölkə ərazisində sertifikatsız arıçılıq məhsullarının satışına yol verilmir!***

Əhalinin sağlamlığının qorunmasında və digər sahələrdə istifadə edilən arıçılıq məhsulları xammalı və onların əsasında hazırlanmış apifitomәhsulların istehsalı, dövriyyəsi və tətbiqi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.





## Yeyinti məhsulları haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət

Yeyinti məhsulları haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan hüquqi və fiziki şəxslər aşağıdakı hallarda Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar:

- insanların həyatına, sağlamlığına, əmlakına və ətraf mühitə təhlükə törədə bilən və ya törətmiş yeyinti məhsullarını qablaşdırma və köməkçi materialları və məmulatları satdıqda, istehsal və idxal etdikdə;
- yeyinti məhsullarını sanitariya tələblərinə cavab verməyən yerlərdə satdıqda;
- yeyinti məhsullarının keyfiyyəti və təhlükəsizliyi sahəsində standartlar və tələbləri pozduqda;
- yeyinti məhsullarının istehsalı və satışı barədə uçot, hesabat və mühasibat sənədlərində, habelə keyfiyyət göstəricilərində saxtakarlığa yol verdikdə;
- rəqibin işgüzar nüfuzu, sahibkarlıq fəaliyyəti, buraxdığı və satdığı məhsulun keyfiyyəti haqqında təhrif olunmuş məlumatlar yaydıqda, işçilərinin xidməti vəzifələrini yerinə yetirməsinə qanunsuz vasitələrlə təsir göstərdikdə;
- rəqibin işgüzarlıq əlaqələrini pozmaq məqsədi ilə bazar subyektlərinə əsassız müraciətlər etdikdə, təkliflər verdikdə, əməkdaşlıq əlaqələrinin yaradılmasına maneçilik törətdikdə;
- qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət gigiyena qeydiyyatından keçməmiş yeyinti məhsullarının satışına yol verdikdə;
- mənşəyi, keyfiyyəti və təhlükəsizliyi barədə sənədləri, istehsalçısı haqqında dəqiq məlumat olmayan, yararlılıq müddəti qurtarmış, habelə zərərsizləşdirilməsi və ya məhv edilməsi, təkrar emala yönəldilməsi və heyvanlara yemləndirilməsi barədə qərar qəbul edilmiş yeyinti məhsullarını satışa çıxartdıqda;
- yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarının yazılı tələblərini və qərarlarını yerinə yetirmədikdə;
- yeyinti məhsulları haqqında qanunvericiliyin pozulmasının digər hallarında.

# Arı məhsulları

## Bal

Arı balı təbiətin bəxş etdiyi ən gözəl nemətdir. O nəinki qiymətli ərzaq məhsuludur, həm də dəyərli müalicə vasitəsidir. Balın müalicə xassəsi onun tərkibindəki şəkərlər, vitaminlər, müxtəlif mikroelementler, mineral maddələr, üzvi turşular, fermentlər, hormonlar və bakteriya əleyhinə maddələrlə zənginliyə əsaslanır. Bal ilə müalicəyə başlamazdan əvvəl ona qarşı allergik reaksiyanın: dəridə səpkilərin, ləkələrin əmələ gəlməsi, qaşınma, bağırsaq pozğunluğu və s. olub-olmamasını müəyyən etmək lazımdır.







## Çiçək tozu-Polen

Cücülərlə tozlanan bitkilərin erkək elementinin arı fermentləri ilə zənginləşdirilməsi ilə yaranan arıçılıq məhsuludur. Çiçək tozu – polenin bir çox faydalı xüsusiyyətləri var: zehin və bədən yorğunluqlarını aradan qaldırır, uşaqların sağlam inkişafına kömək olur, əsəbilik hallarını aradan qaldırır, düşünmə və iş gücünü artırır.

Polen arıyıca olaraq xərçəng, ürək-damar, qaraciyər, qan azlığı, göz, astma bronxit, iflic və beyin xəstəliklərində istifadə olunur. O, orqanizmə müsbət təsir göstərən biostimulyator rolunu oynayır.







## Arı südü

**Arı südü** – arıçılıq məhsuludur. Arı südü 5-15 günluk körpə işçi arıların udlaq və üst çənə vəzilərində hazırlanır. Sürfələrin və yumurtlama dövründə ana arının yemlənməsinə sərf olunur.

Arı südü insan orqanizmi üçün vacib olan zəngin tərkibə malik əvəzedilməz bioloji aktiv qida məhsuludur.

Antivirus, antibakterial, biostimullaşdırıcı (uşaqların böyüməsini situmullaşdırır), yaddaşı artırır, qocalmanı ləngidir, qan təzyiqini normallaşdırır, ürəyin funksiyasını və qan dövranını yaxşılaşdırır, həzm orqanlarının işini yaxşılaşdırır, endokrin (o cümlədən, cinsiyyət) vəzilərinin funksiyasını stimullaşdırır.

Axşam və gecə saatlarında arı südü qəbulu məsləhət görülmür.







## Propolis (Vərəmum)

Balverən arıların möcüzəli məhsullarından biri də propolisdir və ya arı yapışqanıdır. Propolis, ümumiyyətlə, zərərsiz maddədir, amma təsiri çox qəbul eden zaman ağız boşluğunu qıcıqlandıra, əhval-ruhiyyəni korlaya bilər, bəzən də diareyaya səbəb ola bilər. Buna görə də ona 3-4 gün ərzində tədriclə öyrəşmək və müalicə kursunu 8-14 günədək bitirmək üçün yaxşılaşdıqda və ya sağaldıqda onun istifadəsini azaltmaq lazımdır.







**Mum**

Arı mumu tərkibində olan A vitamini dərinin hüceyrə və qoruyucu epitelinin normal inkişafına kömək edir. Əsasən, qırışları azaltmaq, dərinin normal elastikliyini bərpa etmək və saxlamaq üçün məsləhət görülür. Bronxial astma və haymoritin müalicəsində bal şanının çeynənilməsinin müsbət effekti qeyd olunub. O, dişləri ərp və daşlardan təmizləməyə, diş ətinin möhkəmlənməsinə, görmə qabiliyyətinin yaxşılaşmasına kömək edir.







## Arı məhsulları: İstehlakçı üçün məlumat

Standartlaşdirma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Kollegiyasının "14" dekabr 2015-ci il tarixli, 150111500016 saylı Qərarı ilə **AZS 843-2015 (ГОСТ Р 51074-2003) "Qida məhsulları. İstehlakçı üçün məlumat. Ümumi tələblər"** standartı qəbul edilib. Standart beynəlxalq, Avropa və Rusiya Federasiyasının milli standartları əsasında hazırlanıb.

Bu standart istehlak tarasına qablaşdırılmış, Azərbaycan Respublikasının ərazisində topdan və pərakəndə satış üçün nəzərdə tutulmuş, ictimai iaşə müəssisələrinə, məktəblərə, uşaq, müalicə müəssisələrinə və istehlakçılara bilavasitə xidmət göstərən digər müəssisələrə çatdırılan yerli və xarici istehsal məhsullarına tətbiq edilir və bu məhsullar haqqında istehlakçıya verilən məlumata qoyulan ümumi tələbləri müəyyən edir.

### *İstehlakçi üçün məlumatın məzmununa dair ümumi tələblər*

İstehsalçı (satıcı) seçimin düzgünlüyünü təmin etmək üçün istehlakçıya zəruri və doğru məlumat verməlidir. Bu məlumatlar bilavasitə qida məhsulu ilə istehlak tarasında mətn, şərti işarələr və təsvirlər şəklində, ayrı-ayrı qida məhsulları üçün qəbul edilmiş üsul ilə istehlak tarasının, etiketin, kontretiketin, kolyeretin, yarlığın, tıxacın, qoşma vərəqənin üzərində təqdim edilir. İstehlakçı üçün mətn şəklində olan məlumat Azərbaycan dilində yazılır. Mətn və yazılar azərbaycan dili ilə yanaşı xarici dillərə tərcümə edilə bilər.

Azərbaycan Respublikasına idxal edilən yeyinti məhsullarının üzərindəki etiketlər və adlar, onlardan istifadə qaydaları barədə izahat vərəqələri başqa dillərlə yanaşı, azərbaycan dilinə tərcüməsi ilə müşayiət olunmalıdır.

İstehlakçı üçün məlumat, birmənalı başa düşülən, aydın, tam və doğru olmalıdır ki, istehlakçı məhsulun tərkibini, xüsusiyyətlərini, qida dəyərliliyini, təbiətini, mənşəyini, saxlanma və istifadə qaydasını, həmçinin, məhsulun bilavasitə və ya dolayı yolla keyfiyyət və təhlükəsizliyini xarakterizə edən məlumatlara dair yanılmasın və aldadılmasın, verilmiş məhsulu, bu məhsul ilə xarici görünüşü və ya digər orqanoleptik xüsusiyyətlərinə görə oxşar olan başqa məhsulla səhv salmasın.

**Arı məhsulları haqqında məlumat aşağıdakılardan ibarət olmalıdır:**

- **<u>Məhsulun adı</u>**

Ad istehlakçıya aydın olmalı, məhsulu konkret və düzgün xarakterizə etməli, onun təbiətini, mənşəyini izah etməli, verilmiş məhsulu digərlərindən fərqləndirməyə imkan verməlidir. Qida məhsulunun adı aydın şəkildə olmalı, hər bir fondan seçilə bilən şriftlə yazılmalıdır.

Məhsulun fərqli vəziyyətləri  və xüsusi emalı haqqında məlumat (məsələn, "qatılaşdırılmış", "bərpa edilmiş", "quru", "üyüdülmüş", "hisə verilmiş", "sublimasiya edilmiş", "pasterizə edilmiş", "sterilizə edilmiş", "termiki emal edilmiş", "UYT (ultra yüksək temperatur) emal edilmiş", "soyudulmuş", "dondurulmuş", "ionlaşdırıcı şüa ilə şüalandırılmış" və s.) məhsulun adına daxil edilir və ya adın bilavasitə yaxınlığında yerləşdirilir.

Qida məhsullarının adları Azərbaycan Respublikasının dövlət standartlarında müəyyən edilmiş adlara uyğun olmalıdır.

**Aşağıdakılara yol verilmir:**

- arı məhsulunun xüsusiyyətinə, eyniliyinə, tərkibinə, miqdarına, saxlanma və ya yararlılıq müddətinə, mənşəyinə, qida məhsulunun hazırlanma üsuluna dair istehlakçıları yanıldan ad verməyə, məhsulun malik olmadığı xüsusiyyətləri, həmçinin müalicəvi olduğunu qeyd etməyə, qida məhsullarının adlarında məhsulun tərkibində olmayan maddə və ya onun birləşməsinin adından istifadə etməyə. Məhsulun tərkibinə qida məhsullarına (inqrediyentlərinə) oxşar  aromatizator əlavə etdikdə, qida məhsulunun adında həmin məhsulun dad və/və ya ətirə malik olduğu qeyd edilməlidir. Müəyyən təbii məhsula xas olmayan və ya kompleks ətirli məhsullar üçün onların ətirləşdirildiyi qeyd edilir (konkret ətir qeyd edilmədən);
- müxtəlif qida məhsullarına bir ad vermək.

Məhsulun "Yalnız üzvi gübrələrdən istifadə etməklə yetişdirilmişdir", "Pestisidlərdən istifadə etmədən yetişdirilmişdir", "Mineral gübrələrdən istifadə etmədən yetişdirilmişdir", "Vitaminləşdirilmişdir", "Konservantsız" kimi xüsusiyyətləri haqqında məlumatın verilməsi, yalnız istehsalçıda qeyd edilmiş məlumatın təsdiqi olduğu halda icazə verilir.

Qida məhsullarının üzərinə "Ekoloji təmiz" yazısının göstərilməsinə icazə verilmir.

- **<u>İstehsalçının adı və yerləşdiyi yer</u>**

İxrac üçün nəzərdə tutulmuş qida məhsullarının istehsalçısının hüquqi ünvanı onun yerləşdiyi ölkənin dilində, latın hərfləri ilə, istehsalçının adı isə azərbaycan dilində qeyd olunur.

Əgər xammal, yarımfabrikatlar, qida məhsulları onların xassələrini dəyişdirən və/ və ya istehlakçı üçün hazır (o cümlədən qablaşdırılmış) məhsul halına salan, texnoloji emalı aparan müəssisələrə gətirilirsə, belə qida məhsullarının istehsalçısı və qablaşdırıcısı həmin müəssisələr sayılır.

"(İstehsalçı-şirkət, firmanın adı) nəzarəti altında istehsal edilmişdir" yazısını göstərmək olar. Belə yazıdan sonra istehsalçı-şirkət, firmanın ölkəsi və hüquqi ünvan göstərilir.

- **<u>İstehsalçının əmtəə nişanı</u>**

İstehsalçının və ya firmanın yerləşdiyi ölkədə müəyyən edilmiş qaydalara əsasən qəbul və təsdiq olunan istehsalçının əmtəə nişanı (əgər varsa).

- **<u>Netto kütlə, həcm və ya məhsulun miqdarı</u>**

Qablaşdırılmış maye məhsullar üçün həcm, digərləri üçün netto kütlə qeyd olunur. Netto kütlə q və ya kq ilə, həcm l və ya ml, $sm^3$ və ya $dm^3$ göstərilir.

Əsas komponenti maye halında olan məhsullarda ümumi nominal netto kütlədən başqa, əsas komponentin də nominal netto kütləsi göstərilməlidir.

- **<u>Məhsulun tərkibi</u>**

Yalnız bir inqrediyentdən ibarət olan məhsullar istisna olmaqla bütün digər məhsullar üçün inqrediyentlərin siyahısı göstərilməlidir.

Siyahıdan öncə "Tərkibi" başlığı qoyulmalıdır. İnqrediyentlər, istehsal zamanı kütlə payının azalması ardıcıllığı ilə sıralanır.

Əgər istifadə edilən inqrediyentin tərkibinə iki və ya daha çox inqrediyent daxildirsə, belə mürəkkəb inqrediyentin öz adı altında inqredi-

yentlər siyahısına daxil edilməsinə yol verilir. Bu halda belə mürəkkəb inqrediyentin bilavasitə adından sonra mötərizədə onun tərkib hissəsi olan inqrediyentlərin siyahısı azalma qaydasında proporsiyaya uyğun göstərilir.

***Hazır qida məhsulunda mürəkkəb inqrediyentin kütlə payı 2%-dən az olduqda onun tərkibinə daxil olan inqrediyentlərin sadalanmamasına yol verilir.***

**Aşağıdakı məhsullar inqrediyent kimi qəbul edilmir :**

- *karbon 4-oksid (məhsulun təsvirində (üzərində) onun qazlı olduğu qeyd edilmişdirsə)*
- *məhsulun istehsalı zamanı müvəqqəti ayrılan, sonradan yenidən məhsula daxil edilən, miqdar nisbəti ilə tərkibdə ilkin miqdarı aşmayan uçucu komponentlər;*
- *istehsal prosesi üçün zəruri olan, hazır məhsulun tərkibinə daxil olmayan maddə və köməkçi materiallar ;*
- *qida məhsulunun bir və ya bir neçə inqrediyentinin tərkibinə daxil olan qida əlavələri, əgər son məhsulda onlar artıq texnoloji təsir göstərmirsə;*
- *həlledici və ya daşıyıcı kimi istifadə edilən maddələr.*

Qida məhsulunun istehsalında və istifadə edilmiş xammalın tərkibində qida əlavələrinin, bioloji aktiv əlavələrin, aromatizatorların, onlara xas olmayan ionlaşdırıcı şüalanmaya məruz qalmış zülal tərkibli komponentlər əlavə edilmiş qeyri - ənənəvi tərkibli qida məhsullarının istifadə edildiyi haqda mütləq məlumat verilməlidir.

Qrup adından sonra, Beynəlxalq nömrələmə sisteminə və ya Avropa nömrələmə sisteminə (E) əsasən (INS) indeks və ya qida əlavəsinin adı qeyd edilir.

Aromatizatorlar üçün qeyd edilməlidir: məhsulun necə olduğundan asılı olaraq "təbii", "təbii ilə identik" və ya "süni".

Məhsulun xüsusi qidalandırıcı xüsusiyyətləri, müalicəvi, pəhriz və ya profilaktiki təyinatı, tərkibində bioloji aktiv maddələrin olması, zərərli olan maddələrin olmaması və ya digər analoji xüsusiyyətlər haqqında məlumatlar, istehsalçıda bu məlumatların təsdiqi olduğu halda etiketdə qeyd edilə

bilər. Bioloji aktiv maddələrin, vitaminlərin və mineral maddələrin miqdarı onların yalnız istehsal zamanı əlavə edildiyi halda qeyd edilir.

İstehsalçının istəyi ilə məhsulun tərkibində təbii halda olan mineral maddələri və vitaminləri (miqdarını göstərməməklə) qeyd etməyə icazə verilir. Belə məhsulun müəyyən edilmiş qaydaya uyğun gündəlik istifadə norması haqqında tövsiyə olmalıdır.

Arıçılıq məhsullarının tərkibi haqqında əlavə məlumat aşağıdakılardan ibarətdir:

**Bal üzrə:**

- məhsulun adı (mənşə yeri ilə tamamlana bilər);
- həqiqiliyi (təbii və ya süni);
- təbii balın növü (botanik mənşəyi) istehsalçının istəyinə görə;
- təbii balın yığılma ili və ya süni balın istehsal tarixi;
- İstehsalçının adı və yerləşdirdiyi yer (ölkə daxil olmaqla hüquqi ünvan, hüquqi ünvana uyğun olmadıqda Azərbaycan Respublikasında yerləşən, lazım olduqda istehsalçı tərəfindən bu ərazidə istehlakçılardan gələn iradları qəbul etmək vəzifəsi ilə səlahiyyətləndirilmiş təşkilatın (əgər varsa) ünvanı;
- istehsalçının əmtəə nişanı (əgər varsa);
- netto kütləsi;
- əlavələr (çiçək tozu, arı südü, propolis, fındıq və digər) ilə təbii bal və süni bal üçün məhsulun tərkibi;
- qida əlavələri, aromatizatorlar, qidaya bioloji aktiv əlavələr, qeyri - ənənəvi tərkibli qidanın inrediyentləri;
- qida dəyərliliyi (məhsulun 100 qramında kilokalori və karbohidratların miqdarı);
- saxlanma müddəti və şərtləri;
- qablaşdırma tarixi;
- məhsulun istehsal olunduğu və eyniləşdirilə bilən sənədin işarəsi;
- uyğunluğun təsdiq edilməsi haqqında məlumat.

**Çiçək tozu (tozcuq), arı südü və propolis:**

- məhsulun adı (mənşə yeri ilə tamamlana bilər);
- çiçək tozu üçün botaniki mənşə (istehsalçının istəyinə görə);

- yığım ili;
- İstehsalçının adı və yerləşdirdiyi yer (ölkə daxil olmaqla hüquqi ünvan, hüquqi ünvana uyğun olmadıqda Azərbaycan Respublikasında yerləşən, lazım olduqda istehsalçı tərəfindən bu ərazidə istehlakçılardan gələn iradları qəbul etmək vəzifəsi ilə səlahiyyətləndirilmiş təşkilatın (əgər varsa) ünvanı;
- istehsalçının əmtəə nişanı (əgər varsa);
- netto kütləsi;
- saxlanma müddəti və şərtləri;
- qablaşdırma tarixi;
- məhsulun istehsal olunduğu və eyniləşdirilə bilən sənədin işarəsi;
- uyğunluğun təsdiq edilməsi haqqında məlumat.

- **Qida dəyərliliyi** *(kalorilik və ya enerji dəyərliliyi, zülalların, yağların, karbohidratların, vitaminlərin, makro və mikro-elementlərin miqdarı)*

Qidalandırıcı maddələrin miqdarı haqqında məlumat məhsulun yeyilə bilən hissəsinin 100q, 100 ml və ya 100 sm$^3$-də olan karbohidratların, züllaların, yağların, makro və mikro elementləri kütləsi kimi, kalorilik/enerji dəyəri 100 q, 100 ml və ya 100 sm$^3$-də məhsula hesablanmış kkal və/və ya kilocoul ilə ifadə olunur.

Zülalların, yağların, karbohidratların miqdarı və kalorilik/enerji dəyəri haqqında məlumat yalnız o zaman göstərilir ki, bu göstəricilərin 100 q (ml, sm$^3$) qida məhsulda olan miqdarı ən azı 2% , mineral maddə və vitaminlər üçün isə tövsiyyə edilən gündəlik istehlak normasından ən azı 5% olsun.

- **Qida məhsullarının saxlanma şərtləri**

Xüsusi saxlanma şəraiti (aşağı temperatur, havanın müəyyən rütubəti, işıq rejimi və s.) tələb olunan məhsullar üçün saxlanma şəraiti o halda göstərilir ki, bu məhsulların istehsal olunduğu müvafiq sənədlərdə saxlanma şəraitinə olan tələblər müəyyən edilmişdir. Konservləşdirilmiş məhsullar üçün qab açıldıqdan sonra saxlanma şərtləri göstərilə bilər.

- **Yararlılıq müddəti**

Yararlılıq müddəti istehsal tarixindən hesablanır. Yararlılıq müddəti istehsalçı tərəfindən, müəyyən edilmiş saxlanma şəraitini qeyd etməklə təyin edilir.

Yararlılıq müddəti aşağıdakı kimi göstərilə bilər: "yararlıdır _____ (saat, sutka, ay və ya il)", "yararlıdır ____(tarix) dək", "_____(tarix)dək istifadə etmək".

Əgər qida məhsulunun yararlılıq müddəti "yararlıdır ____dək" və ya "______dək istifadə edilməlidir" sözlərindən sonra göstərilmişdirsə istifadə müddətinin bitməsi: gün, ay, il- yararlılıq müddəti 3 aydan çox deyilsə, ay, il- əgər yararlılıq mqddəti 3 aydan çoxdursa yararlılıq müddəti göstərilən ayın birinədək davam edir.

Yararlılıq müddəti 3 aydan çox olan zaman gün, ay, il qeyd etməyə icazə verilir. Bu halda yararlılıq müddəti istehlak tarasında göstərilən günədək davam edir.

- **Saxlanma müddəti**

İstehsalçı qida məhsulları üçün saxlanma müddətini göstərə bilər.

Qida məhsullarının saxlanma müddəti istehsal tarixindən hesablanır və aşağıdakı kimi göstərilir: "saxlanma müddəti ______(tarix)-dək", "saxlanma müddəti _______(gün, ay və ya il)".

- **Satış müddəti**

Qida məhsulunun satış müddəti, məhsulun saxlanma və ev şəraitində təyinatı üzrə istifadə müddəti nəzərə alınmaqla istehsalçı tərəfindən müəyyən edilir.

Qida məhsullarının satış müddəti istehsal tarixindən hesablanır və aşağıdakı kimi göstərilir: _______"(saat, tarix)-dək satılmalıdır" və ya ______"(saat, sutka) ərzində satılmalıdır".

- **İstehsal tarixi və qablaşdırma tarixi**

İstehsal tarixi aşağıdakı sözlərlə göstərilir:

"İstehsal edilib_____(tarix)", qablaşdırma tarixi "qablaşdırılmışdır ______(tarix)". Əgər məhsulu istehsal edən və qablaşdıran, eyni zamanda

istehsalçı həm də qablaşdırandırsa və ya 3.5.2-ci yarımbəndinə əsasən qablaşdırıcı istehsalçı hesab edilirsə, istehsal və qablaşdırma aşağıdakı sözlərlə qeyd edilir: "istehsal edilmiş və qablaşdırılmışdır ______(tarix)". Qida məhsulu istehsalının texnoloji prosesi çəkilib qablaşdırmadan sonra da davam edirsə (məsələn sterilizə, soyudulma, yetişmə və s.) yalnız istehsal tarixi göstərilir

İstehsal və qablaşdırma tarixi gün, ay, ili göstərən iki rəqəmli ədədlər şəklində (məsələn, 22.06.02) və ya etiketdə olan rəqəmlərin qarşısında qeydlər şəklində göstərilir və ya tarixi göstərilən yerə istinad kimi işarə olunur.

Qida məhsulları haqqında məlumatda yararlılıq müddəti və/və ya saxlanma müddəti və/və ya satış müddəti qeyd edilir. Doğranmış və/və ya çəkilib qablaşdırılmış qida məhsulları üçün yararlıq müddəti və/və ya saxlanma müddəti və/və ya satış müddəti istehsalçının müəyyən etdiyi müddət nəzərə alınmaqla qablaşdırıcı tərəfindən istehlak tarasına vurulur.

- **Məlumatın yerləşdirilməsi**

Məlumat hər bir istehlak tarasının üzərində, oxunması rahat olan yerdə yazılmalıdır. Rəngsiz istehlak tarasına doldurulan şəffaf, rəngsiz maye məhsullarının qablaşdırma tarixi etiketin əks tərəfində yazıla bilər.

Əgər istehlak tarasında məhsul haqqında zəruri məlumatı bütövlükdə göstərmək mümkün deyilsə, məhsul haqqında məlumat, istehsalçının istəyinə görə, əlavə vərəqdə yazılaraq fərdi və ya qrup istehlak taranın hər bir vahidinə əlavə edilə bilər; həmçinin, qida məhsulları dəstlərlə satılan qrup istehlak tarasının hər bir vahidi istehlakçı üçün məlumatla müşayiət edilə bilər.

- **Məlumatın təsvir edilməsi üsulu**

Məlumat hər hansı bir üsulla yazılmalı, aydın və asan oxuna bilən olmalıdır.

Əgər məhsulun yerləşdirildiyi qrup istehlak tarası əlavə örtüklə örtülmüşdürsə, ya daxildəki qablaşdırmanın etiketi örtüyün altından aydın şəkildə oxunmalıdır, ya da xarici qaba analoji etiket vurulmalıdır.

Qida ilə təmasda olan məlumatın vurulma vasitəsi qida məhsulunun keyfiyyətinə təsir etməməli, saxlanma və daşınma və satılma zamanı markalanmanın dayanıqlı olmasını təmin etməlidir.

## Arıçılıq təsərrüfatlarının uçotu

Arıçılıq sektorunda statistik məlumatların hazırlanması, arıxanaların köçürülməsinə nəzarət, baytarlıq-sanitariya tədbirlərinin həyata keçirilməsi, arıxanaların sığortalanması, kənd təsərrüfatı bitkilərinin zərərvericiləri ilə mübarizə apararkən arıçılara məlumat verilməsi, entomofil kənd təsərrüfatı bitkilərinin tozlanması işinin yaxşılaşdırılması məqsədilə arıçılıq təsərrüfatlarının uçota aparılır.

Arıçılıq təsərrüfatlarının uçotunu müvafiq ərazilər üzrə Kənd Təsərrüfatı Nazirliyinin müvafiq yerli qurumları həyata keçirir.

Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 116 nömrəli Qərarı ilə təsdiq edilmiş "Arıçılıq təsərrüfatlarının uçotu Qaydası"na əsasən, arıçılıq təsərrüfatının rəhbəri uçota durmaq üçün müvafiq ərazi üzrə yerli quruma ərizə ilə müraciət etməlidir. Ərizədə arıçılıq təsərrüfatının rəhbərinin soyadı, adı, atasının adı, yaşayış yeri və arıçılıq təsərrüfatının yerləşdiyi, yaz-yay və payız aylarında köçürüldüyü ərazilərin adları, arı ailələrinin sayı, onların orta məhsuldarlığı, təsərrüfatın sağlamlığı barədə baytar həkiminin arayışı və aparılan baytarlıq tədbirləri barədə məlumatlar göstərilməlidir. Arıçılıq təsərrüfatının rəhbərinin şəxsiyyətini təsdiq edən sənədin surəti ərizəyə əlavə edilməlidir.

Arıçılıq təsərrüfatlarının uçotunu aparan yerli qurum ərizəyə 2 gündən gec olmayaraq baxmalıdır. Uçotu aparan yerli qurum bu müddət ərzində təsərrüfatın uçota götürülməsi barədə onun rəhbərinə bildiriş verir. **Arıçılıq təsərrüfatlarının rəhbəri dəyişdikdə,** təsərrüfatın yeni rəhbəri bu barədə onun uçotunu aparan yerli quruma 3 gün müddətində yazılı məlumat verməlidir.

Arıçılıq təsərrüfatlarının uçotunun aparılması üçün statistika orqanları tərəfindən təsdiq edilmiş formaya uyğun yerli qurum bu məqsəd üçün uçot kitabı tərtib edir. Uçot kitabında arıçılığa dair məlumatlar qeyd edilir.

Arıçılıq təsərrüfatları ləğv edildikdə, həmçinin arı ailələri özgəninkiləşdirildikdə və hər hansı təbii fəlakət və xəstəliklər nəticəsində məhv olduqda 5 gün müddətində yerli quruma məlumat verilir və uçot kitabında müvafiq qeydlər aparılır.

## Arıçılığa dair statistik məlumatların tərtibi və təqdim edilməsi

Hər il yanvarın 1-i vəziyyətinə mülkiyyət formasından asılı olmayaraq, arıçılıq təsərrüfatları, həvəskar və peşəkar arıçılıqla məşğul olan hüquqi və fiziki şəxslər Dövlət Statistika Komitəsinin müəyyən etdiyi Forma əsasında (**Nümunə 2**) statistika orqanlarına hesabat təqdim edirlər. Arıçılıq təsərrüfatları tərəfindən hazırlanan ilkin məlumatlar (arı ailələrinin sayı, arıların cinsi, məhsuldarlığı, məhsul istehsalı və s.) onun fəaliyyətini əks etdirən əsas sənəddir.

Həvəskar arıçılıqla məşğul olan təsərrüfatlar haqqında məlumatlar Dövlət Statistika Komitəsinin apardığı seçmə müayinə üsulu ilə ildə bir dəfə toplanır.

Statistik Hesabat Formasında arıçılıq təsərrüfatı üzrə aşağıdakı məlumatlar olmalıdır:

- rayonun adı;
- kənd inzibati ərazi vahidi;
- kəndin (qəsəbənin) adı;
- təsərrüfatın mülkiyyət forması;
- təsərrüfat rəhbərinin soyadı və adı, onun ünvanı və telefon nömrəsi;
- arı cinsinin adı;
- arı cinsinin populyasiyasının adı;
- arı ailələrinin və ana arıların sayı;
- yeni alınmış arı ailələrinin sayı;
- il ərzində xəstəlikdən məhv olmuş arı ailələrinin sayı;
- bal istehsalı (kq);
- mum istehsalı (kq);
- vərəmum istehsalı (kq);
- arı südü (qr);
- çiçək tozu (kq);
- güləm istehsalı (kq).

Hər il yanvarın 1-i vəziyyətinə olan arıçılıq təsərrüfatlarının (payız baxışı zamanı əldə edilmiş göstəricilər əsasında) məlumatlarını rayon və şəhər statistika idarələri Dövlət Statistika Komitəsinə təqdim edirlər.

**Nümunə 2**

## ARIÇILIĞA DAİR STATİSTİK HESABAT FORMASI

1. Rayonun adı
2. Ərazi vahidi
3. Kəndin (qəsəbənin) adı
4. Mülkiyyət növü
5. Arı cinsinin adı
6. Arı cinsinin populyasiyasının adı
7. Arı ailələrinin və ana arıların sayı
8. Yeni alınmış arı ailələrinin sayı
9. İl ərzində xəstəlikdən məhv olmuş an ailələrinin sayı

| Göstəricilər | Ölçü vahidi | Sətrin kodu | İlin əvvəlinə qalıq | İl ərzində cəmi istehsal (arı yemi üçün saxlanılan bah daxil etməklə) | Onlardan satılmışdır(ilin əvvəlinə qalıq daxil olmaqla) | | İlin axırına qalıq (kq) |
|---|---|---|---|---|---|---|---|
| | | | | | miqdar (kq) | dəyəri (manat) | |
| A | | B | 1 | 2 | 3 | 4 | 5 |
| Bal | kq | 01 | | | 1 | | |
| Mum | kq | 02 | | | | | |
| Vərəmum | kq | 03 | | | | | |
| Arı zəhəri | q | 04 | | | | | |
| Arı südü | q | 05 | | | | | |
| Çiçək tozu | kq | 06 | | | | | |
| Güləm | kq | 07 | | | | | |

Təsərrüfat rəhbərinin soyadı və adı ______________________________
Ünvanı, telefon nömrəsi ______________________________

## Arı ailəsinin standart gücünün müəyyən edilməsi

Bal arılarının məhsuldarlığı, arı ailəsinin inkişafının artım sürəti, erkən yazda yaşlı arıların yeniləri ilə əvəz olunma müddətinin qısa olması və xəstəliklərə dözümlülüyü ailədə olan arıların miqdarından asılı olduğundan, arı ailələrinin standart gücü müəyyən edilir.

**Arı ailəsinin standart gücünün müəyyən edilməsi Qaydası**na əsasən, arı ailələrinin sayının uçotu onların standart gücü nəzərə alınmaqla aparılır.

Arı ailələrinin müxtəlif mövsümlər üzrə standart gücü aşağıdakı göstəricilər əsasında müəyyən edilir:

- *payız dövründə, arı ailələri qışlamaya qoyulduqda, pətəkdə 2,5-2,8 kq və ya 25-28 min arı, 20-25 kq ehtiyat qış yemi və iki yaşdan çox olmayan ana arı olduqda;*
- *erkən yaz dövründə, arı ailələri qışlamadan çıxdıqda, pətəkdə 1,5-2 kq və ya 15-20 min arı və 5-8 kq ehtiyat bal olduqda;*
- *yayda, əsas nektar yığımı dövründə pətəkdə 3-3,5 kq və ya 30-35 min arı olduqda.*

Arı ailələri yuxarıda müəyyən edilmiş standart gücə malik olduqda, normal arı ailəsi hesab olunur.

Arı ailələrinin sayının uçotu onların standart gücü nəzərə alınmaqla, Kənd Təsərrüfatı Nazirliyinin müvafiq yerli qurumları ilə birlikdə arıçılıq təsərrüfatları tərəfindən aparılır.

Standart gücə uyğun gəlməyən zəif arı ailələrinin uçotu aparılarkən, onlar köməkçi arı ailəsi kimi qeyd olunur. Ailədə azı 1-1,2 kq və ya 10-12 min arı və 3-5 kq ehtiyat bal olduqda, həmin an ailəsi köməkçi arı ailəsi hesab olunur.

Əsas nektar yığımı dövründə köməkçi arı ailələrinin bal toplama qabiliyyətinin zəif olmasını nəzərə alaraq, bal məhsuldarlığını artırmaq məqsədi ilə 2 və ya 3 köməkçi arı ailəsi birləşdirilərək, standart gücə çatdırıla bilər.

Peşəkar arıçılıqla məşğul olunan arıxanalarda arı ailələrinin standart gücü nəzərə alınmaqla, bu məqsəd üçün tərtib olunmuş jurnalda qeydlər aparılır.

## Arı ailələrinin zərərvericiləri ilə mübarizə tədbirləri

Arı ailələrinin zərərvericiləri arıçılığa xeyli iqtisadi ziyan vurur. Bunun qarşısını almaq, arı ailələrini sağlam və məhsuldar saxlamaq üçün ziyanvericilərə qarşı aparılan profilaktik mübarizə və müalicə tədbirləri mütəmadi və səmərəli təşkil edilməlidir.

Nazirlər Kabinetinin 17 sentyabr 2009-cu il tarixli, 144 saylı Qərarı ilə təsdiq edilmiş «**Arı ailələrinin zərərvericiləri ilə mübarizə tədbirlərinin həyata keçirilməsi Qaydası**» arı ailələrinin zərərvericiləri ilə mübarizə tədbirlərini müəyyən edir.

Qaydaya görə, arı ailələrinin zərərvericiləri ilə mübarizə tədbirləri aşağıdakı qaydada aparılmalıdır:

**Mum güvəsi.** Bu zərərverici ilə mübarizə həm arıxanada, həm də şan və mum xammalı saxlanılan anbarlarda aparılır. Güvəyə yoluxmuş şanlar pətəkdən çıxarılır, yuva kiçildilir, ailələr ehtiyat yemlə təmin edilir və yuva qızdırılır.

Anbarda saxlanılan şan və mum xammalında mum güvəsi aşkar edildikdə, ciddi zədələnmiş şanlar mum üçün əridilir, az zədələnmiş şanlar isə dezinfeksiya edilir. Mum güvəsi ilə mübarizə aparmaq üçün kükürd tüstüsündən istifadə edilir.

**Güləm güvəsi.** Onlarla mübarizə tədbirləri güclü arı ailələrinin saxlanmasından, pətəyin təmizliyinə diqqət yetirilməsindən, şanlara kükürd tüstüsü verilməsindən, onların quru yerdə saxlanılmasından və binanın havasının dəyişdirilməsindən ibarətdir.

**Gənələr.** Bu həşəratları məhv etmək üçün endobakterindən istifadə edilir. Ehtiyat şanda mum güvəsində olduğu kimi kükürd tüstüsündən istifadə edilir.

**Büvələr.** Bu zərərvericilərin arılara hücumu çox vaxt arıxanaların balyığma yerlərinə köçürülərkən, pətəkləri bilavasitə torpağın üstünə qoyduqda baş verir. Buna görə də pətəklərdə çatlar olmamalıdır, onlar hündür (30-40 sm) dayaqlar üzərinə qoyulmalıdır, uçuş bacasına ancaq arı keçə biləcəyi ölçüdə tor çəkilir.

**Hörümçəklər.** Bu həşəratlar pətəklərin uçuş bacası altında, yaxud onlara yaxın yerlərdə gizlənirlər. Hörümçəklərə qarşı mübarizə tədbirləri arıxanada və arıxana yaxınlığında olan hörümçək torlarını və onların baramalarını məhv etməkdən ibarətdir.

**Qarışqalar.** Onların pətəyə daxil olmasının qarşısını almaq üçün pətəklər 30-40 sm hündürlükdə dayaqlar üzərində yerləşdirilməli və dayaqların aşağı hissəsinə yapışqanlı örtüklər sarınır. Pətəyin ətrafında olan hündür otlar biçilir.

**Qaxac dəriyeyəni.** Bu zərərvericilərə qarşı profilaktika və mübarizə tədbirləri güclü arı ailələri saxlamaqdan, pətəyin təmizliyini təmin etməkdən və istiləşdirici materialı dezinfeksiya etməkdən ibarətdir. Şan saxlanan anbarların havası vaxtaşırı dəyişdirilir, parazit müşahidə olunduqda bina kükürd tüstüsü ilə dezinfeksiya edilir.

**İynəcələr.** Bunlara qarşı mübarizə məqsədi ilə onların kütləvi uçuşu zamanı arıxana başqa yerə köçürülür və arıxanada suvat təşkil edilir ki, arılar sudan ötrü iynəcələr olan sucaq yerlərə getməsinlər.

**Qısqaclar.** Bu həşəratlar zəif ailələrə daha çox hücum edirlər.Onların hər biri 300 qrama qədər bal yeyir. Qısqacların pətəyə girməsinin qarşısını almaq üçün pətəklər dirəklər (30-40 sm hündürlükdə) üstünə qoyulur, dirəklərin aşağısına yapışqanlı məhlullar: kanifol ilə gənəgərçək yağının qarışığı, neft yağları sürtülür. Qısqaclarla mübarizədə antibakterindən də istifadə edilir.

2.10. **Qurd arısı (filant).** Onların törəyib artması bal arısının mövcudluğu ilə bağlıdır. Buna görə də iyul və avqust aylarında qurd arısı inkişaf etdiyi vaxt arıxana onların məskən saldıqları yerdən 7-10 km aralı məsafəyə köçürülməlidir.

**İt arıları.** Bu həşəratlar payızda havalar soyuyanda bal arılarının yuvanı qorumaq fəaliyyəti zəiflədikdə, hücum edərək balı mənimsəyirlər. İt arıları ilə mübarizə yazda onların inkişaf etdiyi vaxtda yuvalarına kükürd tüstüsü verməklə aparılmalıdır.

**Himar arıları.** Bunlara qarşı tədbirlər it arılarına qarşı görülən tədbirlər kimidir.

**May böcəyi.** Bu həşəratın iki növü vardır: adi may böcəyi və zolaqlı (alabəzək) may böcəyi. Onların hər ikisinin sürfələri arılar arasında meleoz xəstəliyini törədir. Xəstəliyə qarşı mübarizə tədbiri məqsədi ilə tütün tüstüsündən istifadə edilir. Böcəkləri məhv etmək üçün torpağa 0,2 faizli perfekton, yaxud 0,4 faizli roqor məhlullarından hektara 500-600 litr hesabı ilə səpilir.

**Siçanlar.** Onlar taxtanı gəmirərək pətəyin divarını korlayır, çərçivələr olan yerə girərək ehtiyat şanları məhv edir, pətəkdəki diri arıları yeyirlər. Siçanlara qarşı mübarizə məqsədi ilə uçuş bacasına arıların keçə biləcəyi ölçüdə tor çəkilir. Siçanları məhv etmək üçün tələlərdən və aldadıcı zəhərli yemlərdən istifadə olunur.

**Senotainiya milçəkləri.** Bunların sürfələri arı zərərvericiləri içərisində xüsusilə seçilir. Bu milçəyin sürfələri senotainoz xəstəliyini törədir. Ona qarşı mübarizə tədbiri əsasən yaşlı milçəkləri məhv etməkdən ibarətdir. Senotainiya milçəyini məhv etmək üçün pətəklərin üstünə tərkibində 0,5 faiz xlorofos olan 1 faizli su nişasta suspenziyası çəkilmiş qalın kağız vərəqi qoyulur.

**Forid milçəkləri.** Bu həşəratın sürfələri foridioz xəstəliyi törətməklə arıçılığa xeyli ziyan vurur. Forid milçəkləri arı ailələrində çürümə hiss edən kimi pətəklərə girərək yumurtalarını açıq sürfələrə və ölmüş arılara yapışdırırlar. Bu milçəklərə qarşı mübarizə tədbirləri aşağıdakılardır: ailənin sağlam və güclü olması təmin olunur, pətəklər və arıxana təmiz saxlanılır, şanlar ildə 2 dəfə, yazda və payızda təmizlənir və dezinfeksiya edilir.

**Fizosefala milçəkləri.** Bu zərərvericilərin sürfələri arılarda fizosefalyoz xəstəliyi törədir. Bu parazitə qarşı mübarizə tədbiri olaraq hər 3 gündən bir pətək ətrafındakı ölmüş arılar toplanıb yandırılır.

## Arı xəstəlikləri

### NOZEMATOZ



Ana, erkək və işçi arıların invazion xəstəliyidir.

**Törədicisi.** Arıların orta bağırsağında parazitlik edən mikrosporride nosema apisdir.

**Klinik əlamətləri.** Xəstəlik qışın axırında və yazda baş verir. Yayda isə simtomsuz keçir. Arılar nozema sporları ilə çirklənmiş bal, güləm və sudan istifadə edərkən, qovuqcuqları təmizləyərkən yoluxurlar. Xəstəliyin inkişafına səbəb qışlama dövründə yemin keyfiyyətsizliyi, yuvanın yaxşı istiləşdirilməməsi və qışın uzun sürməsidir.

Xəstəliyə tutulmuş arıların qarnı şişkinləşir, qanadları titrəyir, uçma qabiliyyəti zəifləyir, şanın, çərçivələrin və pətəyin divarı ifrazatla çirklənir.

**Diaqnozu.** Kliniki nişanələrinə, mikroskopik müayinənin nəticələrinə və epizootik məlumatlara əsasən qoyulur. Diaqnoz zamanı xəstəlik intensivlik cəhətdən dörd dərəcəyə bölünür. Birinci və ikinci yoluxma dərəcələri xəstəlik daşıyıcısı, üçüncü və dördüncü dərəcələri isə xəstəlik sayılır. Xəstəliyin üçüncü və dördüncü dərəcələri müəyyən edildikdə arıxana qeyri-sağlam sayılır və ona məhdudiyyət qoyulur, təlimat əsasında tədbirlər görülür.

**Müalicəsi.** Arıların ifrazatı ilə çirklənmiş şanlar pətəkdən çıxarılır, pətəyin divarları və döşəməsi təmizlənir, arılara keyfiyyətli yem verilir. Xəstə ailə dezinfeksiya edilmiş pətəyə köçürülür, yuva qısaldılır və istiləşdirilir. Neomatozla xəstələnmiş ailənin balı ilə arıların yemləndirilməsinə yol verilmir. Xəstəliyin müalicəsində fumagilin və nozematol işlədilir. Bunun üçün 1l şəkər şərbətinə 50-100 mq (378-756 min T V) fumagilin qarışdırılır. Belə hazırlanmış müalicə şərbəti 30 0C temperaturada xəstə ailəyə yazda 2-4 dəfə, 1-2 həftə fasilə ilə, hər çərçivə arası arıya 200 ml miqdarında verilir.

Nozematol yazın əvvəlində, yaxud payızda süzüləsi bal yuvadan götürüldükdən sonra, havanın tempraturu +14°C-dən aşağı olmayan vaxt

aerozol halında işlədilir. Bu məqsədlə aerozol məşəli həp çərçivə aralığına 1-1,5 saniyə verilir. Müalicə 3 günlük fasilə ilə 3-4 dəfə təkrar edilir.

Arıxana xəstəliyin kliniki nişanələri müşahidə edilmədikdə və| təlimat üzrə tədbirlər görüldükdən sonra sağlamlaşmış sayılır.

## SENOTAİNOZ



Senotainoz əsasən uçuş arılarının parazitar xəstəliyidir.

**Törədicisi.** Xəstəliyin törədicisi boz ət milçəyi ailəsindən olan parazit milçək senotainia tricuspis sürfələridir.

**Əlamətləri.** Milçəyin dişiləri yay vaxtı pətəyin yaxınlığında gizlənərək arı uçduğu zaman ona hücum edib baş-döş nahiyəsinə sürfələrini yapışdırırlar. Sürfə arının kutikulasını deşərək daxili orqanlarına keçib qarın və başın əzələlərini məhv edir və arının yalnız boş xitin skeleti qalır. Senotaina sürfələri ilə yoluxmuş arılar 2-9 günədək tələf olurlar.

Xəstə arılar uçma qabiliyyətini itirir, pətək ətrafında sürünür, qanadları əyilir (bu xarakterik əlamətdir), xəstə arı sağalmır. Senotaina sürfələri ölmüş arı cəsədində inkişafını davam etdirir. Buna görə də sanki ölü arının hərəkəti nəzərə çarpır. Halbuki senotaina sürfələri ölmüş arı cəsədində hərəkət edirlər. Xəstəliyin nişanələri tədricən görünməyə başlayır. Parazit sürfə əvvəlcə arının hemolim-fasım sorur, sonra əzələ liflərini zədələyir. Parazit döş qəfəsəsi orqanlarını yedikdən sonra qarın boşluğu orqanlarına keçir.

**Diaqnozu.** Senotainoza diaqnoz onu törədən milçəkləri arıxanada tapmaqla xəstə və ölmüş arıların döş boşluğunda milçəyin sürfələrinin tapılmasına əsasən qoyulur. Diaqnoz üçün xəstə və ölmüş arı nümunəsi laboratoriyaya spirtdə, yaxud balın içərisində göndərilir. Arının döş qəfəsəsini açarkən orada milçəyin hərəkət edən sürfələri görünür.

**Mübarizə tədbirləri.** Əsas mübarizə tədbiri yaşlı milçəkləri məhv etməkdən ibarətdir. Hər gün arıxanada xəstə və ölmüş arılar yığılıb yan-

dırılır. Senotaina sürfələrini məhv etmək üçün arıxanada 20 sm dərinliyində kiçik çuxur qazılır, həmin çuxura senotaina sürfəsi ilə yoluxmuş arılar toplanır. Buradan da onları yığıb yandırmaq lazımdır. Senotaina milçəyini məhv etmək üçün pətəklərin üstünə tərkibində 0,5% xlorofos olan 1%-li su-nişasta suspenziyası çəkilmiş qalın kağız vərəqi qoyulur. Arılar pətəyin üstünə qonmadıqlarına görə xlorofos onlara ziyan toxundurmur.

## BRAULYOZ



Arıların invazion xəstəliyidir.

**Törədicisi.** Xəstəlik braula seca adlanan parazit tərəfindən törədilir.

**Əlamətləri.** Bu xəstəliyə arıların bitliliyi də deyirlər. Xəstəliyin törədicisi ana, işçi və erkək arıların bədən səthində parazitlik edir. O adi gözlə görünən qəhvəyi rəngli qanadsız həşəratdır.

**Diaqnozu.** Xəstəliyə diaqnoz törədicinin (braulanm) ana, işçi və erkən anların üstündə görünməsi və laborator müayinəsi ilə onu başqa həşərat və gənələrdən ayırd etməklə qoyulur. Braula ilə varroa gənəsinin fərqi ondadır ki, braulanın üç cüt uzun, varroanm isə dörd cüt qısa ayaqları vardır. Varroanın bədəni oval, braulanın bədəni isə uzunsovdur. Braulyoz təsdiq edildikdən sonra arıxana bu xəstəliyə qeyri-sağlam elan edilir və arıxanaya məhdudiyyət qoyulur.

**Müalicəsi.** Müalicə məqsədilə quzuqulağı turşusu, formasid, yaxud termik varroksan T-l, varrofen və fenotiazin həbləri 21 gün fasilə ilə iki dəfə işlədilir. Bal süzüldükdən sonra bir dəfə həmin preparatlardan biri işlədilir.

Bunlardan başqa fitovarroasidin tüstü halında işlədilməsi (varroatozda olduğu kimi) yaxşı nəticə verir.

Arıxanadan məhdudiyyət xəstəlik ləğv edildikdən və təlimat üzrə tədbirlər görüldükdən sonra götürülür.

## VARROATOZ



Yaşlı arıların və arı sürfələrinin parazitar xəstəliyidir. Xəstəliyə səbəb Varroa jakobsoni adlanan gənədir. Bu gənə arıların və onların sürfələrinin xarici bədən səthinə yapışırlar. Gənə adi gözlə göründüyündən onu müəyyən etmək asandır.

Gənə dörd cüt qısa ayaqlara malikdir. Ayaqlarının ucunda sorucu yastıqca vardır ki. onun köməyilə gənələr arıların bədəninə möhkəm yapışıb arının hemolimfası ilə qidalanırlar. Gənənin rəngi tünd qəhvəyidir.

Yaz-payız dövründə gənələr arı üzərində qidalanaraq arı orqanizmində maddələr mübadiləsinin pozulmasına və hemolimfanın tərkibinə toksiki maddələrin toplanmasına səbəb olur.

Bu xəstəlik zamanı sürfələrin tələfatı, yaşama qabiliyyətinə malik olmayan eybəcər (qanadsız, ayaqsız, formasız bədənə malik) arıların çıxması xarakterik əlamətlərdəndir. Uçuş bacasının qabağında ölmüş arılarla bərabər, çıxarılıb atılmış sürfələrə də təsadüf edilir.

Varroatoz invaziyasının sürətli inkişaf dövrü əsas bal süzümündən sonrakı dövrlə bir vaxta düşür. Xəstəliyə diaqnoz arıxana və laboratoriya müayinələrinə əsasən qoyulur.

Xəstəliyin törədicisi braulyoz xəstəliyinin törədicisi olan braula coekaya oxşadığına görə hər iki xəstəliyi bəzən qarışıq salırlar. Bu iki xəstəliyin törədicisini biri-birindən fərqləndirən əlamət varroa gənəsinin görünüşü oval şəklində, eni uzunundan artıq olduğu üçün hərəkət edəndə sanki düz xət üzrə deyil yanı-yanı hərəkət edir. Braula isə uzunsov bədən quruluşuna malik olduğuna görə hərəkəti düz xətt boyuncadır. Onları fərqləndirən digər əlamətlər isə braulanın dörd cüt qısa ayaqlarının braulanın üç cüt uzun ayaqlara malik olması, braulanın yaşlı arılarda, varroanın isə yaşlı və sürfələrdə parazitlik etməsidir.

Profilaktika tədbirlərinin əsas məqsədi sağlam arıxanaların xəstəlikdən qorunmasıdır. Bunun üçün baytar mütəxəssisləri və arıçılar ildə iki dəfə

(yazda arılar uçuşa başlayanda və payızda arılar qışlamaya hazırlanan vaxt) təşkil etməlidirlər.

Varroatozun müalicəsində varrool, quzuqulağı turşusu, akarasan, amipol, bipin, bivar, varroapol, mentol, tanis, fenotiazin və s. preparatlar işlədilir.

Varrool payızda Sulu məhlul halında hər çərçivəaralığına 5-6 ml şan üzərindəki arıların üstünə çilənir. Quzuqulağı turşusu 2 %-li məhlul halında 10 çərçivəlik arıya 100 ml çiləyici aparatla çilənir. Mentol hər ailəyə 6 q miqdarında kibrit qutusunda pətəyə qoyulur.

## AKARAPİDOZ



Akarapidoz yaşlı arıların parazitar xəstəliyidir. Xəstəlik Akarapis vudi adlanan gənə tərəfindən törədilir. Gənə tənəffüs yollarında-traxeyada məskən salır. Onu yalnız mikroskop altında görmək mümkündür.

Gənə arının traxeyasına daxil olduqdan sonra onun divarını deşir və arının hemolimfasını soraraq onun tələfatına səbəb olur. Xəstəliyin əsas əlamətləri yazın əvvəlində və yayda yağıntılı dövrlərdə nəzərə çarpır. Xəstə arılar pətəyin ətrafına səpələnərək uça bilmədikləri üçün sürünə-sürünə hərəkət edirlər. Arılar parazitdən xilas olmaq üçün adi haldan fərqli olaraq arxası üstə çevrilib dövrə vurur və beləliklə parazitdən xilas olmağa çalışırlar. Pətək ətrafında yüzlərlə, minlərlə arı sürünur, xəstə akrının qanadları çəp durur.

Xəstəliyin diaqnozunu müəyyən etmək üçün ölmüş və xəstə arılar karton qutuda baytarlıq laboratoriyasına göndərilir.

Xəstəliyin profilaktikası sağlam arıxanaya törədicinin gətirilməsinə yol verməməkdən ibarətdir. Xəstəliyə yoluxmanın ən çox qorxusu başqa naməlum yerdən arıların gətirilməsidir.

Müalicə-profilaktika məqsədilə yuvadan artıq şanlar çıxarılır, qalan

şanlar pətəyin ortasına yığılır, onun yan tərəflrinə arakəsmə qoyulur, uçuş bacası kiçildilir, zəif ailələr birləşdirilir. Xəstəliyin müalicəsində folbeks, akarasan, polisan, fumisan, tedion, efirsulfonat preparatları işlədilir.

Folbeks (bir dəfədə 0,5 q, 30 dəqiqə müddətində, 7 gün fasilə ilə 8 dəfə), efirsulfonat (bir dəfədə 0,3 q, 2 saat müddətində, 7 gün fasilə ilə 8 dəfə), tedion (hər dəfə 1 q, 5 saat müddətində bir gün fasilə ilə 10 dəfə) pətəkdə arılara tüstü formasında işlədilir. Fumisan 8-10 çərçivəlik arısı olan pətəkdə pətəyin daxili divarından 1 lent preparat asmaqla tətbiq edilir. Ailədə sürfə olduqda lent pətəkdə 25 sutka, sürfə olmadıqda isə 2-3 sutka saxlanır.

## Arı xəstəliklərinin müalicəsində istifadə edilən dərman vasitələrinin siyahısı

Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 116 nömrəli Qərarına əsasən, arı xəstəliklərinin müalicəsində istifadə edilən dərman vasitələrinin siyahısına aşağıdakılar daxildir:

1.Akarasan
2.Amipil
3.Amipol
4.Apiask
5.Apilinol
6.Apistin
7.Apiprotekt
8.Apitak
9.Apifit
10.Arı poliviti
11.Askozol
12.Askonzal
13.Askool
14.Askopol
15.Askosan
16.Askosin
17.Askostat
18.Baktopol
19.Bivar
20.Bivarool
21.Biovetin
22.Biomitsin
23.Bipin
24.Varroaset
25.Varroatin
26.Varroabraulin
27.Varroapol
28.Varrool
29.Vetsan
30.Qanşqa turşusu
31.Quzuqulağı turşusu
32.Güveset
33.Dikobin
34.Dilabik
35.Endonukliaza
36.Enteroseptol
37.Endoqlyukin
38.Eritromitsin
39.Etildixlorbenzilat
40.Efirsulfonad
41.Yantrin
42.Yodoxlorin
43.Kanvil
44.Kanamitsin
45.Keltan
46.Kiresidin
47.Klotrin
48.Kovitsan
49.Levomisetin
50.Mentol
51.Metilsalisilat
52.Mikosan
53.Monomitsin
54.Muravinka
55.Naftalin
56.Neomitsin
57.Nistatin
58.Novarsenol
59.Nozedin
60.Nozemat
61.Nozematol
62.Norsulfazol natri
63.Oksivit
64.Oksitetrasiklin
65.Paqp
66.Polizin
67.Polisan
68.Polisot
69.Kas-81 preparatı
70.Pçelka
71.Rahəb-1
72.Rahəb-2
73.Ribonukleaza
74.Sanazin
75.Sintomitsin
76.Stimovit
77.Streptomitsin
78.Natrium sulsimit

79.Sulfadimezin
80.Sulfantrol
81Sulfapridin
82.Süd turşusu
83.Tanis
84.Teda
85.Tedion
86.Tetrasiklin
87.Timol
88.Unisan
89.Fenotiazin
90.Fitovarroasid
91.Folbeks
92.Formiset
93Fumagilin
94.Fumisan
95.Xarvin
96.Xlortetrasiklin












## Arı ailələrinin balyığma və yeni məskunlaşma yerlərinə köçürülməsi



Arı ailələrinin normal inkişafını, məhsuldarlığını, habelə kənd təsərrüfatı bitkilərinin tozlanmasını təmin etmək, yaz, yay və payız mövsümlərində nektar gəlirinə olan tələbatını fasiləsiz ödəmək məqsədi ilə yeni məskunlaşma yerlərinə köçürülür.

Arıçılıq sahəsində arı ailələrinin balyığma və yeni məskunlaşma yerlərinə köçürülməsi qaydalarını müəyyən etmək üçün Nazirlər Kabineti 17 sentyabr 2009-cu il tarixli, 144 saylı Qərarı ilə **“Arı ailələrinin balyığma və yeni məskunlaşma yerlərinə köçürülməsi Qaydası”**nı təsdiq edib.

Qaydaya əsasən, arıxanalar köçürülərkən aşağıdakı işlərin həyata keçirilməsi vacibdir:

- yuvadan süni və ağır ballı nektarla yeni doldurulmuş şanlar, isidici döşəkçələr və isti kətan parçalar çıxarılır;
- yuvada yüksək temperaturun və nəmliyin yaranmasının qarşısını almaq üçün ventilyasiya dəlikləri açıq saxlanılır, yuva üstü məsaməli torla örtülür;
- yuvada olan şan çərçivələrinin, pətəyin altlığının, divarlarının və qabağının köçürülməsi zamanı tərpənərək arıları narahat etməmək üçün onlar müvafiq qaydada bir-birinə bərkidilir;
- arıxanaların köçürülməsi axşam və gecə vaxtı həyata keçirilir, havalar sərin keçdikdə onlar gündüz də köçürülə bilər;
- arı ailələri nəqliyyat vasitəsinə yerləşdirildikdə alt hissədə zəif, üst hissədə isə güclü arı ailələri yerləşdirilməli, nəqliyyat vasitəsi tam ehtiyatla idarə edilməlidir;
- köçürülmə başa çatdıqdan sonra arıların bir-birinə hücumunun qarşısını almaq üçün onların sakitləşməsi gözlənilir və hər pətəkdən bir uçuş bacası açılır, qalan pətəklərin bacaları isə ardıcıl açılır; yeni məskunlaşma sahəsində qonşu arıxanadakı arı ailələrinin

sağlam olması və kənd təsərrüfatı bitkilərinin zərərvericilərinə qarşı kimyəvi mübarizə vasitələrindən istifadənin vaxtı müəyyən edilir.

Arı ailələri bitkilərin çiçək açma vaxtından, müddətindən və nektar ifraz etmə qabiliyyətindən asılı olaraq bir ərazidən digər əraziyə arıçılıq təsərrüfatlarında əvvəlcədən tərtib olunmuş təqvim planına əsasən köçürülür. Arı ailələrinin köçürülməsi yerli özünüidarəetmə orqanları ilə əvvəlcədən razılaşdırılır.

Arıçılar arıxanaların aran bölgələrdə mədəni bitkilər olan ərazilərə, dağətəyi bölgələrdə əsas nektar ifraz edən mədəni və yabanı bitki örtüyü olan ərazilərə və dağlıq bölgələrdə isə əsas nektar gəliri verən yabanı bitki örtüyü olan ərazilərə köçürülməsini təmin edirlər.

Azərbaycanda arıçılığın yem bazasını-aran, dağətəyi və dağlıq ərazilərin bitki örtüyü təşkil edir. Respublikamızın təbii-coğrafi və iqlim şəraitini, eyni zamanda bitki örtüyünün müxtəlifliyini nəzərə alaraq, arı ailələrinin normal inkişafını təmin etmək üçün onların mövsüm ərzində azı beş dəfə köçürülməsini təmin etmək lazımdır.



**Fevral ayının ikinci ongünlüyündə qışlamadan çıxmış arı ailələrinin birinci köçürülməsi təşkil edilir.** Bu zaman arı ailələri dağətəyi bölgələrdən aran bölgələrinə köçürülür. Bu dövrdə aran bölgələrində hava şəraitinin başqa bölgələrə nisbətən isti keçməsi arı ailələriinin oyanmasına və ana arıların yuva daxilində daha erkən yumurta qoymasına səbəb olur. Arı ailələri bu zaman yuva daxilində ehtiyat baldan və çiçək tozundan istifadə edəcək inkişafa başlayır. Yuva daxilində şanlarda balın möhrünün arıçı tərəfindən az miqdarda açılması arıların inkişafa başlamasına güclü təsir göstərir. Möhrü açılmış balın iyi arıları özünə cəlb edir. Arıların balla qidalanması belə ailələrin daha tez oyanmasına və inkişafa erkən başlamasına səbəb olur. Arı

ailələri mart ayının ikinci ongünlüyünə qədər yuva daxili qidanın hesabına inkişaf edərək keyfiyyətcə yeni, cavan nəsl ilə əvəz olunur.

May ayının 15-inə kimi aran bölgələrində işləyən arı ailələrini yenidən dağətəyi bölgələrə aparmaqla onların **ikinci köçürülməsi** təşkil edilir.

Arı ailələrinin əsasən bitkilərin nektar əmələ gətirmə dövründə dağətəyi bölgələrə və ilin ən isti aylarında isə (iyulda) dağlıq bölgələrə aparmaqla **üçüncü köçürülməsi** təşkil edilir.

Avqust ayında arı ailələrini aran bölgələrinə yenidən qaytarmaqla onların **dördüncü köçürülməsi** təşkil edilir.

Arıların son işləmə dövrü avqust və sentyabr aylarıdır. Bu dövrdə arılar nektar və çiçək tozunu pambıqdan, yoncadan,üzümdən və payız efemerlərindən toplayırlar. Oktyabr ayının əvvəlindən arı ailələrinin yuvası qış üçün yığılır və respublikanın dağətəyi bölgələrinə aparmaqla onların **son-beşinci köçürülməsi** təşkil edilir.

Arıçılar arı ailələrini yerli şəraitdən asılı olaraq. əsas nektar əmələ gəlmə dövründə bir dəfə əvəzinə, iki və ya üç dəfə köçürə bilərlər.

Arı ailələri vaxtında, planlı surətdə və şüurlu qaydada köçürülməlidir. Ona görədə də arıçı öz bölgəsinin hər bir hektarında olan bitki örtüyündəki nektarın təxmini nə qədər olmasını bilməlidir.

Bal arılarının əlverişli uçuş diametri 3 km-dir. Bu o deməkdir ki, pətəyin olduğu yerdən bütün istiqamətlərə tərəf 3 km uzaqlıqda olan bitkilərdən arılar nektar toplaya bilər.

Bal məhsuldarlığının artırılmasının əsas amili arı ailələrinin planlı surətdə, mövsüm dövründə köçürülməsinin optimal təşkilidir. Köçürülmə işinin düzgün təşkil edilməsi ilk növbədə arı ailələrinin standart gücdə inkişaf etməsinə səbəb olur. Arıçılıqla məşğul olan fermerlər arı ailələrinin yonca, xaşa , şabdar bitkiləri olan əkin sahələrinin, təbii biçənəklərin, cökə və akasiya meşəliklərinin yaxınlığına köçürülməsinə üstünlük verməlidirlər.

Arı ailələri köçürüldükdə arı cinslərinin və onların populyasiyalarının rayonlaşdırılması planına riayət olunmalıdır.

# Arıçılıqla bağlı avadanlıqlar

## ***Ana arı yetişdirmə alətləri***

**Tüp**



Ana arını işarə etmək üçün istifadə olunur.

**Sancaq**



Ana arını zədələmədən tutmaq üçün istifadə olunur.

**İşarəetmə qələmi**



Ana arını işarə etmək üçün istifadə olunur.

**İşarəetmə boyası**



Ana arını işarə etmək üçün istifadə olunur.

## Sancaq



Ana arını bir yerdən digər yerə daşınmasında və anasız pətəklərə verilməsində istifadə olunur. Bu qəfəsdə ana arı işçi arılarla birlikdə 10-15 gün qala bilər.

## Arıçı geyimi və arıçı papağı



Arıçının arı sancmasından qorumaq üçün istifadə olunur.

## Arıçı əlcəyi



Arının əli sancmaması üçün əlcək taxılır.

## *Ana arı yetişdirmə alətləri*

**Nukleus**



Ana arı yetişdirmə qutusu

**Qələm**



Yumurta köçürmə qələmi

**Qələm**



Arı südü istehsalında istifadə olunan alətdir

**Üskük**



Ana arı yetişdirilməsində və arı südü yığılmasında istifadə olunur

| **Jenter Aləti** | **Nikot** |
| --- | --- |
|  |  |
| Ana arının yetişdirilməsində istifadə olunur | Ana arının yetişdirilməsində istifadə olunur |

| **Kalpak** | **Titov qəfəsi** |
| --- | --- |
|  |  |
| Təzə Ana arını anasız pətəyə vermək üçün və ana arını müəyyən müddətə digər arılardan qorumaq üçün istifadə olunur. | Arıları bir yerdən digər yerə daşınmasında və anasız pətəklərə verilməsində istifadə olunur. |

# ***Arıçılıq avadanlıqları***

## Arıçı Körüyü



Arıxanada iş zamanı körükdən verilən tüstü zamanı arıları sakitləşdirmək üçün istifadə olunur. Həmçinin, bəzi tüstü dərmanlarının verilməsi zamanı da istifadə olunur.

## İsgənə



Pətək gövdəsini və başqa hissəsini bir-birindən ayırmaq, yaxud çərçivələri yerindən tərpətmək, pətəyin dibini, divarını və çərçivələri təmizləmək üçün işlədilir.

## Arıçı bıçağı



Ballı çərçivələri bal süzmə aparatına qoymamışdan əvvəl onların möhürünü açmaq üçün istifadə olunur. Bıçaqdan istifadə zamanı bu işə daha az vaxt sərf olunur.

## Fırça



Bal süzümü zamanı ballı çərçivələri pətəklərdən aldıqdan sonra üzərindəki arıları təmizləmək üçündür.

## ***Arıçılıq avadanlıqları***

### **Yem qabları**



Yem qabları arı ailələrinin yem ehtiyatını tamamlamaq, müalicə və profilatika məqsədilə arılara şəkər şərbətində dərman maddələri vermək, gəzəngi balın bir hissəsini şəkər şərbətilə əvəz etmək, habelə, oyadıcı, yaxud stimullaşdırıcı yem vermək üçün işlədilir.

### **Bal süzmə aparatı**



Bal şanlardan bal süzmə aparatı vasitəsilə çıxarılır. Bal süzmə aparatında fırlanma zamanı mərkəzdənqaçma qüvvəsinin təsirindən bal şan qovuqcuqlarından sıçrayıb çıxaraq balsüzənin dibinə toplanır və oradan da kran vasitəsilə axıdılaraq qablara doldurulur.

### **Reduktor**



Reduktor

### **Elektrikli bal isitmə və çökdürmə qazanı**



Elektrikli bal isitmə və çökdürmə qazanı

## *Arıçılıq avadanlıqları*

### Günəş mumərideni




Bu üzəri pəncərə şüşəsi ilə örtülü taxta qutudan ibarətdir. Günəş mumərideninin üstün cəhəti ondan ibarətdirki, onun vasitəsilə az əmək sərf etməklə yüksək keyfiyyətli mum almaq olur.

### Buxar mumərideni




Su və istilik vasitəsilə böyük miqdarda mumu əritmək üçün istifadə olunur.

### Arıçı məftili




Çərçivələri şanlamaq üçün çərçivəyə məftil çəkilməlidir. Belə məftil yumşaq və diametri 5mm olmalıdır.

### Lekal



Lekal taxtasından süni şanı çərçivəyə yapışdırmaq üçün istifadə edilir.

## ***Arıçılıq avadanlıqları***

| Vərdənə | Çiçək tozu yığan |
| --- | --- |
|  |  |
| Süni şanı çərçivəyə yapışdırmaq üçündür. Bu çərçivələrə süni şan çəkilməsi işini asanlaşdırır. | Arıların çiçəklərdən topladığı çiçək tozlarını pətəyə girərkən pətəyə qurulan tələ vasitəsilə yığılması üçündür. |

| Çiçək tozu qurutma aparatı | Arı girişi |
| --- | --- |
|  |  |
